düşdüm. (*Sağ tərəfdən getmək istəyəndə, qabağına Şeyda çıxır*) Aha... Məqaləni yazan bu idi. (*Gülüş*) Bağışlayın. Yenə yadımdan çıxdı. Şeyda, oğlum, mənim ayılmağıma səbəb sənin məqalən oldu. (*Geri qayıdıb soldan çıxmaq istədikdə, qabağına Kamilə çıxır*)

K a m i l ə. Əmi...

K ə r ə m o v. Min kərə demişəm ki, idarədə mənə əmi demə... Yox, qızım, sən də məni bağışla, hanı o, hə... Şeyda, bura gəl. Təbrik eləyirəm. Mən razıyam.

Ş e y d a. Nə olubdur ki?

K ə r ə m o v. Mübahisə lazım deyil. Sizin evlənməyinizə mən Kərəmov icazə verirəm. Qurtardı.

S u r x a y. Kərəmov ömründə bir yaxşı iş gördü, o da budur. Camaat, Musa dayının toyu qarışdı hamımızın toyuna.

K ə r ə m o v. Elə mənə də toy elədiniz. Yaxşısı budur çalın, özüm öz toyumda oynayım.

Çalırlar. Kərəmov oynayır.

P ə r d ə

XOŞBƏXTLƏR

4 pərdə, 5 şəkildə

İŞTİRAK EDƏNLƏR

M ü r ş ü d – mühəndis
İ n c i – onun arvadı
S a d ı q – mühəndis
G ü l ə r – onun arvadı
N ə s i r o v – tikintinin rəisi
B ə r b ə r z a d ə – təchizatçı
M a r a l – yerli komitənin sədri
M i r z ə Q ə r ə n f i l – rəisin müavini
S ə n u b ə r – katibə
U s t a S e g a h – rəngsaz
İ k i n c i G ü l ə r – rəngsazın şagirdi
H ə l i m ə – yerli komitənin işçisi
C ə l i l – işçi
B i r i n c i i ş ç i
İ k i n c i i ş ç i
Ü ç ü n c ü i ş ç i
F o t o q r a f, i ş ç i l ə r, q o n a q l a r və başqaları

BİRİNCİ PƏRDƏ

BİRİNCİ ŞƏKİL

Böyük bir istirahət evinin tikintisi, səhnədən dəstə-dəstə işçilər danışa-danışa keçirlər. Səhər tezdəndir. N ə s i r o v qəti addımlarla səhnəyə çıxır, o yan-bu yanı gəzir. Bərbərzadənin otağına baxır, bir-iki ağız Bərbərzadəni səsləyir, sonra Maralın otağına baxır, yuxarı boylanaraq, "Mirzə Qərənfil" deyə səslənir, heç bir cavab olmur. Səhnədən çıxmaq istədikdə, b i r i n c i i ş ç i və i k i n c i i ş ç i ilə qarşılaşır.

N ə s i r o v. Hə, gəlmisiniz?

B i r i n c i i ş ç i. Çoxdan, yoldaş Nəsirov! Odur ey, dülgərlər, dəmirçilər işə başlayıblar. Biz də gərək damı düzəldək, ancaq materiallarımız yoxdur. Bərbərzadə hələ gəlməyib.

İ k i n c i i ş ç i. Rəngsazlar da orada avara qalıblar. Materialları yoxdur.

Nəsirov. Budur da... Onları danlayanda, çox danışmağa qoymayanda, hələ bəzilərinin xoşuna da gəlmir. Yaxşı, o avara hələ buralara hərlənməyib?

Birinci işçi. Hansı avara? Bir nömrəli, ya iki nömrəli?

Nəsirov. Bu nə sözdür, avaraları nömrələmisiniz, nədir?

İkinci işçi. Öz aramızda biz Mirzə Qərənfilə birinci avara adı qoymuşuq. Bərbərzadə avaraçılıqda bir az ondan geri qalır.

Nəsirov (*gülür*). Eybi yoxdur, mən onları tərlədib, avaralığı və tənbəlliyi bədənlərindən damcı-damcı çıxardacağam. Mühəndislər, fəhlələr, əsl iş işləyən adamlar öz istirahət günlərində alaqaranlıqdan durub gələ bilirlər, ancaq bunlar utanmırlar, hələ gecikirlər də!

Birinci işçi. Bu cür böyük tikintini başa çatdırırıq, heç gəlməmək olar, Nəsirov yoldaş?

Nəsirov. Yoldaşsız.

İkinci işçi. Əlbəttə, yoldaşsız. Arvad-uşağı gətirsək, əlayağımıza dolaşarlar. Söz vermişik bayramlara qədər qurtaraq, gərək qurtaraq.

Birinci işçi. Bizdən arxayın olun, qurtaracayıq. Amma siz onları bir az tərpədin.

Nəsirov. Onları tərpətməyəcəyəm, silkələyəcəyəm. Buruqda neft gözləniləndə buruq ustası gəlib evində yatırmı? Yox, maraqlanır, həyəcan keçirir, gecə-gündüz buruqla əlaqəsini üzmür. Amma bunlar hazır materialı da daşıyıb gətirə bilmirlər. Biz gərək Staxanov hərəkatını genişləndirib, bu tikintini vaxtından iki ay qabaq qurtaraq. Söz vermişik, sözümüzün üstündə durmalıyıq. Gəlin gedək, mən özüm sizə material verərəm.

Birinci işçi. Halvaçı qızı daha şirin. Gedək.

Gedirlər. Mürşüd və İnci həyəcan içərisində səhnəyə gəlirlər.

Mürşüd. İcazə ver, əzizim, bu axırıncı gün də iş uğrunda canımı fəda eləyim, sonra ömrümün quşunu qəfəsə salıb açarını həmişəlik verəcəyəm sənin əlinə. Qara fikirləri başından dağıt. "Ayrılacağam, yaşamayacağam" kimi sözləri muzeyə təhvil ver. Gördün ki, işə gəlirəm? İndi daha arxayın ola bilərsən. Ayrılıq vaxtıdır, ver gözəl əllərini sıxım, günortaya qədər.

İnci. Sən mənə dil tökmə, əllərimi də sıxmaq lazım deyil. Ya mən deyən olacaq, ya sən deyən. Bu saat gərək həll eləyək.

Mürşüd. Çox tələsirsən. Bu saat həll eləmək olmaz. Mən gedirəm işə, sən də get evə. Bədənə qida verən şeylərdən bir qədər hazırla. Mən qayıdaram, otururuq səadət stolunun dalında. Mən xırda-xırda yeyərəm, sən də xırda-xırda deyərsən, həll eləyərik. İndi isə xudahafiz...

İnci. Heç bir Xuda da lazım deyil, Hafiz də. Səni heç yerə buraxan deyiləm. Çünki bu gün istirahət günüdür. Get de ki, işləyə bilməzsən. Di tez get, mən burada gözləyirəm.

Mürşüd. İnci, axı, mən evdə sənə bir kitab söz danışdım. Bu gün biz hamımız öz arzumuzla işləyirik ki, istirahət evini vaxtından tez açaq. Özün də bilirsən ki, bu iş bizim təşəbbüsümüzdür. Dünən hamıya təbliğat aparmışıq ki, gəlin işləyək. Amma bu gün hamı işləsin, mən çıxım gedim? Mən də gərək öhdəmə götürdüyüm işləri qurtaram, ya yox?

İnci. Yox! Sabah işlərsən. Bu gün isə mənim ixtiyarımdasan. Namusla səkkiz saat işləmisən qurtarıb. Daha istirahət günü işləyib, özündən hoqqa çıxartma. Bax, Mürşüd, ya bu saat buradan gedirik operaya bilet almağa, ya da ki...

Mürşüd. Ya da ki?..

İnci. Ya da ki, ayrılaq, çıxsın getsin. Daha mən dözə bilmirəm. Burada oturub, işini qurtarıncaya qədər ağlayacağam.

İki fəhlə söhbət edə-edə keçir.

Mürşüd (*həyəcanla*). İnci, axı ayıbdır, görən nə deyər. Kişi gəlib işləməyə, arvad göz yaşı tökə-tökə qarovulunu çəkir. Olmaz axı...

İnci. Niyə olmur? Çox gözəl olar. Yoxsa, qorxursan, buradakı qızlar, xanımlar məni görüb, sənin evli olduğunu bilərlər?

Mürşüd. Ay İnci, guya, mən evli olduğumu danıram?

İnci. Danmasan, özünü bu cür subay kimi aparmazsan. İstirahət günü arvadını gözü yaşlı qoyub buralarda hərlənməzsən.

Mürşüd. İnci, axı, o gün mən sənə isbat elədim ki, qısqanclıq keçmişin tör-töküntüsüdür. Beynindəki o tör-töküntüləri təmizləməmiş sənin mənim işlərimdən başın çıxmaz. Onu bilirsən, ya yox?

İnci. Mən heç bir şey bilmirəm, onu bilirəm ki, burada oturub gözləyəcəyəm. Ya sənin lə gəzməyə gedəcəyəm, ya da ki... ZAQS-a.

Mürşüd. Ay mənim ruhumun qarovulçusu! ZAQS-a getməyin özü də vaxt istəyir, yoxsa yox? Vaxtım olsa, sənin lə gəzməyə gedərəm, ZAQS-a niyə gedirəm ki? Di xudahafiz! İstəyirsən heç görüşməmişdən ayrılaq. Di mən getdim. (*Getmək istəyir, İnci qoymur*)

İ n c i. Xeyr, getmədin! Bu saat buradanca birbaş gedirik gəzməyə. Bir ildir evlənmişik, hələ sən məni yanına salıb bir yerə aparmamısan, daha dözə bilmirəm.

M ü r ş ü d. İnci!

İ n c i. Kor deyiləm ki?

M ü r ş ü d. İnci!.. İşə düşmədik!

İ n c i. Kimdən əskiyəm? Bəlkə mənimlə gəzməyə utanırsan? Yox, iki yolumuz var, ya ayrılıb, ailə zəncirini birkərəlik qırırıq, ya da ki, elə bu gecə gedirik operaya, kinoya, sirkə...

M ü r ş ü d. Hamısına bu gecə?

İ n c i. Hamısına bu gecə. Bəsdir daha. Park açılıb, görməmişəm, sirkə getməmişəm. İki gündə bir dəfə kino görmürəm. Xalxın arvadları...

M ü r ş ü d. İnci! Bir dayan görüm. Pah atonnan sənin! Pulemyot kimi düzürsən bir-birinin dalına. Dayan, mən də bir kəlmə deyim də...

İ n c i. Nə deyəcəksən, axı? Xalxın arvadları...

M ü r ş ü d. Ay balam, xalxın arvadları ilə mənim nə işim var? Bu saat iş mənim xirtdəyimdəndir. Başımı naryadla qaşıyıram. Qoy bir bu istirahət evini qurtarıb təhvil verək. Sonra, vallah, çarpayımın ayağına dörd təkər qayırıb ipini verəcəyəm sənin əlinə, gəzək parkları, bağları sutkada iyirmi dörd saat. Başa düşürsən?

İ n c i. Düşmürəm!

M ü r ş ü d. Daha onun təqsiri məndə deyil. Adamda gərək qanacaq anadangəlmə olsun. Ərin bu işdə sənə heç bir köməyi ola bilməz.

İ n c i. Ola bilər!

M ü r ş ü d. Nə ola bilər?

İ n c i. Mən nə bilim? Sən dedin ola bilməz. Mən də acığnan deyirəm, ola bilər.

M ü r ş ü d. Bu olmadı ki, demək, mən nə desəm, sən onun əksini deyəcəksən?

İ n c i. Mürşüd, mənə yazığın gəlmir? Dur bu saat gedək kinonun birinci seansına bilet almağa. Oradan da çıxıb teatra gederik. Gecə saat on ikidən sonra da parkda böyük gəzinti var.

M ü r ş ü d. İnci, qadan alım, mən bu gün ta gecəyə qədər burada məşğul olacağam. Özün bilirsən ki, bu boyda bina bizim proyektimizlə tikilir, hər mıxının belə, məsuliyyəti bizdədir. Bircə həftə səbr elə...

İ n c i. Yox, Mürşüd! Mən daha buna dözə bilmərəm. Bu cür evli həyatdansa, subay olmaq minqat yaxşıdır.

M ü r ş ü d. İnci! Axı, sən də mənim vəziyyətimi düşün. Mən iş sahibiyəm. Qoy bu söhbətin dalını axşam evdə aparaq. Mən getdim, hələlik! (*Öz-özünün əlini sıxır*)

İ n c i. Mürşüd! O cür asanlıqla yaxanı qurtarma! Hara gedirsən? Mənə qəti bir cavab ver. Gündüz iş, gecə iş, istirahət günü iş. Yanıma düşüb bir yana çıxmazsan...

Mürşüd getdikcə, İnci də onun dalınca bu sözləri deyə-deyə çıxır. S a d ı q qoltuğunda böyük bir bağlama, yavaş-yavaş, fikirli içəri girir, dalınca G ü l ə r gəlir.

G ü l ə r. Sadıq!

S a d ı q. Aman, aman, yenə gəldi.

G ü l ə r. Sadıq! Yerindən qımıldanma.

S a d ı q. Qımıldanma deyirsən, qımıldanmaram.

G ü l ə r. Aç bağlamanı!

S a d ı q. Aç deyirsən, açaram.

G ü l ə r. ZAQS kağızını hara aparıb gedirsən? Bura ver!

S a d ı q. Ver deyirsən, verərəm. Daha acıqlanmaq nə üçün?

G ü l ə r. Acıqlanaram da, hələ bir az da o yana gedərəm. (*Kitabları eşələyib kağızı çıxarır*)

S a d ı q. Demeli, Gülər can, kitab bağlandı?

G ü l ə r. Kitab da bağlandı, bazar da. Bu gün istirahət günüdür. ZAQS bağlıdır. Sabah, düz bu vaxt gedərsən müdirinizin yanına, yarım saatlıq icazə alıb gələrsən, məni gözləyərsən, kağızını verərəm qoltuğuna, gedərsən. Soruşsalar ki, niyə belə? Deyərsən ki, bazar bağlandı. Başa düşdün?

S a d ı q. Düşdüm, niyə düşmürəm ki?

G ü l ə r. Paltarlarını, yorğan-döşəyini büküb qonşuda qoyacağam. Gəlib apararsan və bir də çalışarsan ki, mənim gözümə görünməyəsən.

S a d ı q. Çalışaram, niyə çalışmıram ki? Təkcə sən deyil, istəyirsən heç kəsin gözünə görünməyim.

G ü l ə r. Bircə birisi səni görsə kifayətdir. Daha ayrı adam nəyinə lazımdır?

S a d ı q. Gülər, vicdanıma and olsun...

G ü l ə r. Sadıq, and içmə, hamısını bilirəm. Ah... o kimdirsə, o sənin dalınca gəzən qız kimdirsə, düşə mənim əlimə, mən ona müharibənin təzə üsullarını göstərərəm.

S a d ı q. Göstərərsən, niyə göstərmirsən ki?

Gülər. Sadıq, qulağım sənin səsini eşitməsin!

Sadıq. Ay Gülər, yəni o qədər zəhlən gedir?

Gülər. Hələ danışırsan da? Özün bilirsən ki... Bu bir ildə biz hər gün iki dəfə dalaşmışıq.

Sadıq. Maşallah! Bizim dalaşmağımızın haqq-hesabını çəkmək üçün yekə bir dəftərxana lazımdır.

Gülər. Hə... Amma indi daha canım boğazıma yığılıb, bəsdir. Mən ailə qurmaq, oğul-uşaq sahibi olmaq istəyirəm. Amma sənin fikrin ayrı yerlərdə səyahət eləyir. Ona görə də nöqtəni qoymalıyıq.

Sadıq. Nöqtəni qoyaq deyirsən, qoyaq, nə deyirəm ki? Ancaq icazə ver, axırıncı dəfə sənə bir sual verim, sonra nöqtəni də qoyaq, vergülü də.

Gülər. Ver axırıncı sualını.

Sadıq. Sənin davan yalnız uşaq üçündür? De görüm, uşaq sənin nəyinə lazımdır?

Gülər. Uşaq insan nəslini artırmaq üçündür.

Sadıq. Demək, bu boyda dünyada insan nəslini artırmaq sənin lə mənə həvalə olunub?

Gülər. Sadıq, kəs mübahisəni!

Sadıq. Kəs deyirsən, kəsərəm, niyə kəsmirəm ki?.. Deməli...

Gülər. Deməlini saxla, sabah ZAQS-da danışarsan. (*Gedir*)

Sadıq. Gülər, ay Gülər, qadan alım, bir dayan.

Sadıq onun dalınca qaçmaq istəyəndə Maral və Həlimə ilə rastlaşır.

Maral. Yoldaş Sadıq, bir dəqiqəliyə. Yerli komitə tərəfindən sənə bir sual verəcəyəm.

Sadıq. Sual vaxtı deyil, rəhmətliyin qızı, arvad getdi. (*Çıxır*)

Maral. Yaxşı, yoldaş mühəndis. (*Həlimə yə*) Mən bunlara yerli komitənin zərb-dəstini gör necə göstərəcəyəm.

Həlimə. Onları tanımırsan, ay Maral bacı? Niyə hirslənirsən? Nə olsun ki, mənə də deyirlər ki, yerli komitənin texniki katibisən, ixtiyarın yoxdur özünçün putyovka götürəsən. Mən də deyirəm ki, yerli komitənin sədri Maral bacıdır, özü bilər, bəlkə məni ən yaxşı kurorta göndərəcək...

Maral. Mənim kurort-zad gözümə görünməyir, ay qız.

Həlimə. Yerli komitənin hörməti kurort ilə, putyovka ilə qalxar. Krıma var? Doktorlar mənə Krımı məsləhət görürlər.

Maral (*darıxmış halda portfelini ona uzadır*). Al, aç bunu görüm, içində qaynanmış su var, ver başıma çəkim. Ürəyimin başı od tutub yanır.

Həlimə. Neçə gündür bir az bikef kimisən, nə olub?

Maral. Sənə deməli deyil!

Həlimə. Sən mənim canım, Maral bacı! Deməsən, əl çəkən deyiləm.

Maral. Dilini dinc qoyarsan?

Həlimə. Mən heç yerli komitənin sirrini başqalarına deyərəmmi? Birdən müdiriyyət xəbər tutar.

Maral. Yerli komitə nədir, ay qız? Qulaq as, gör nə deyirəm. Ürəyim dönüb olub sərv ağacı. Məhəbbət quşu qonub bu sərvin bir budağına, ürəyimi tut ağacı kimi silkələyir. Başa düşdün? Ah, sən cavansan, belə şeyləri hardan başa düşürsən ki?

Həlimə. Niyə başa düşmürəm, ay Maral bacı? Yəqin aşiq olmusan.

Maral. Haradan bildin, ay qız?

Həlimə. Olmuya müdiriyyətə vurulmusan?

Maral. Amma bax, lal-kar! Bildin?

Həlimə. Əcəb işdir, yerli komitə müdiriyyətə aşiq olub!.. İşçilərin hüququ yaxşı müdafiə olundu.

Maral. Eh, sən də söz danışdın. Bu saat elə halımdır ki, öz hüququm yadımdan çıxıb.

Həlimə. Ancaq mən yaxşı başa düşə bilmədim, hansı müdiriyyətə? Yoldaş Nəsirova?

Maral. Yox-yox! Bir pillə aşağı en!

Həlimə. Mirzə Qərənfilə?

Maral. Bir pillə də en.

Həlimə. Hə... Demək Bərbərzadəyə?

Maral. Ay, ürəyim xarab oldu.

Həlimə (*gülür, birdən səhnə arxasına baxıb sevincək*). Bıy, ay Maral bacı, Bərbərzadə gəlir. Özü də sənin çün gör necə bəzənib?

Maral. Bura gəlir? Ay aman, ürəyim çırpınır.

Həlimə. Mən gedirəm. Özünü itirmə. Nə olub ki?

Həlimə çıxır. Bərbərzadə ehtiyatla içəri girir.

Bərbərzadə (*özünü son dərəcə itirmişdir*). Demək olar ki, gəlib çıxmışam.

Maral (*utancaq*). İndi ki, gəlmisən, daha neyləmək olar, xoş gəlmisən.

Bərbərzadə. Hava bu gün sərindir.

Maral. Yox a, yaman istidir.

Bərbərzadə. Elə mən də o cür demək istəyirdim. Mən istiyə sərin deyirəm. Uşaqlıqdan adət eləmişəm.

Maral. Portfelsiz gəlməyinizdən belə məlum olur ki, istirahətə çıxmısınız?

Bərbərzadə. Dedim ki, bu gün istirahət günüdür. Ayaqüstü bura baş çəkib evə qayıdım. Gedəndən sonra görürəm ki, yadımdan çıxıb şapqamı burada qoymuşam. İndi də onu axtarmağa gəlmişəm. (*O yan-bu yana baxır*).

Maral. Bıy, şapqa başınızdadır ki!

Bərbərzadə. Doğrudan da, başımda imiş. Mən isə, bayaqdan bəri şapqamı axtarıram. (*Sükut*) Nə dediniz?

Maral. Heç, mən bir söz demədim.

Bərbərzadə. Hə, görünür, qulağım aldanıb, yaxşı, bəs indi biz necə eləyək?

Maral. Nəyi necə eləyək?

Bərbərzadə. Şeyi deyirəm də... Ox, yaman tərləmişəm, deyəsən, yadımdan çıxıb, yaylığımı da evdə qoymuşam.

Maral. Bəs əlinizdəki yaylıq deyil?

Bərbərzadə. Bəli, qəti olaraq demək olar ki, mən özümü itirmişəm. (*Özünü silir*)

Maral. Mən də lap istidən boğuluram.

Bərbərzadə (*cibindən qəzetə bükülmüş yemək çıxardır*). Bəlkə aclığınız var? Məndə ehtiyatdan həmişə yemək olar.

Maral. Yox, mən yaz-yay həmişə bir şüşə qaynanmış sudan başqa ağzıma heç bir şey almaram.

Bərbərzadə. Mən isə tərsinə. Özümə korluq verən deyiləm. (*Sükut*) Demək olar ki, əgər zavxoz dili ilə desək, bizim ikimizin də söz inventarımız qurtarıb?

Maral. Sizin beyninizə bir şey gəlmir?

Bərbərzadə. Bir az dayanın, beynimi qurdalayım, hə, hə, gəldi. Mirzə Qərənfili tanıyırsınız?

Maral. Bizim Mirzə Qərənfili? Çox gözəl tanıyıram. Beş aylıq üzvlük haqqını verməyib, ittifaqdan çıxardacağam.

Bərbərzadə. Hələ çıxartmayın, səbir eləyin!

Maral (*nazlanaraq, minnət qoyur*). Mənim gözlərim üstə, hələlik çıxartmaram, sizin xatirinizə.

Bərbərzadə. Xatiriniz isti-soyuq görməsin. Bəli, haman Mirzə Qərənfil elə adamdır ki, stəkana sal, su ilə iç, həvəngdəstədə döy, qənd elə, ye!..

Maral. Nə olar ki?

Bərbərzadə. Bəli, haman Mirzə Qərənfil... (*Özünü itirmiş halda gözlərini döyərək*) Heç mən bilmirəm biz nə üçün Mirzə Qərənfildən söhbət saldıq?

Maral. Siz beyninizi qurdaladınız, içindən Mirzə Qərənfil çıxdı.

Bərbərzadə. Hə, yadıma düşdü. Mən utanıram, danışa bilmirəm, sözümü Mirzə Qərənfilə deyərəm, o sizə yetirər. Siz də ona deyin!

Bayırdan səs-küy gəlir. Nəsirov və Mirzə Qərənfil içəri girirlər. Maral və Bərbərzadə ayağa qalxırlar.

Nəsirov (*onları bir yerdə görüb pərt olur*). Hə, bu da bunlar... Biri təsərrüfat müdiri, biri yerli komitənin sədri. Yəqin qeybət eləyirlər.

Bərbərzadə. Yoldaş Nəsirov...

Nəsirov (*onun sözünü kəsir*). Bir kəlmə belə danışmağa icazə verməram. Səhərdən işçilər gəlib materialsız qalıblar, mən zavxoz əvəzinə material paylayan olmuşam, bu isə burada boşboğazlıq eləyir. Öyrənmisiniz dünyanı başınıza götürüb, saatlarla danışmağa. Adamın vaxtını almağa həvəsiniz var. Mən bu tikintidə uzunçuluqla, boşboğazlıqla mübarizə eləməkdən yorulmuşam.

Bərbərzadə. Yoldaş Nəsirov...

Nəsirov (*yenə onun sözünü kəsir*). Bir kəlmə də. Budur bütün işçilər bu gün öz xahişləri ilə işləyirlər. Amma siz burada yenə də çənənizi bərkidib beyninizi boşaldırsınız. Sizi mən dəqiqə ilə, saniyə ilə danışmağa öyrədəcəyəm. Bir məsələni başa salmaq üçün uzun-uzun cümlələri dəvə karvanı kimi yan-yana düzmək lazım deyil. Bir cümlənin bir kəlməsi, hətta bir kəlmənin bir hecası kifayətdir.

Maral. Yoldaş Nəsirov! Biz burada...

Nəsirov (*onun sözünü kəsir*). Dedim bir kəlmə də olmaz. Mirzə Qərənfil!

Mirzə Qərənfil. Mirzə Qərənfil sizi kölgə kimi təqib eləyir.

N ə s i r o v. Uzatma. Sən mənim müavinimsən, hər şeyi bilməlisən. De görüm, işçilər material ilə təmin edilmişlərmi? Sənə bir dəqiqə vaxt verirəm.

M i r z ə Q ə r ə n f i l. Yoldaş Nəsirov yəqin bilsin ki, müxtəsər danışmış olsaq, demək olar ki, heç bir zaman bizim təsərrüfatımızda, yoldaş Nəsirov...

N ə s i r o v. Yoldaş deməsən də olar.

M i r z ə Q ə r ə n f i l. Nəsirov! Heç bir zaman bizim təsərrüfatımızda...

N ə s i r o v. Mənim familiyamın bu söhbətə heç bir dəxli yoxdur.

M i r z ə Q ə r ə n f i l (*birnəfəsə deyir*). Heç bir zaman bizim təsərrüfatımızda işçilər materialsız qalmayıblar.

N ə s i r o v. Bax, bu bir kəlmə sözü demək üçün gör nə qədər vaxtımı aldın! Bərbərzadə! De görüm, rənglər hazırdırmı?

B ə r b ə r z a d ə. Mən hələ heç, yoldaş Nəsirov...

N ə s i r o v (*sözünü kəsir*). Yoldaşsız!

B ə r b ə r z a d ə. Mən hələ heç, Nəsirov...

N ə s i r o v. Nəsirovsuz!..

B ə r b ə r z a d ə. Mən hələ heç... hələ heç... Özümü itirdim getdi ki...

N ə s i r o v. Demək, almamısan?

B ə r b ə r z a d ə. Xeyr, yoldaş... sız... Almışam... hazırdır.

N ə s i r o v. Yerli komitə sədri, sən də görüm, yarış müqaviləsinin neçə yerinə yetirildiyini yoxlamısınız, yoxsa yox?

M a r a l. Xeyr, yoldaş Nəsirov, hələ mən indicə...

N ə s i r o v. Yoldaşsız və Nəsirovsuz. Yarım dəqiqə vaxt verirəm, ya hə, ya yox!

M a r a l. Yox!

N ə s i r o v. Nə yox?

M a r a l. Yoxlamamışıq.

N ə s i r o v. Necə yəni yoxlamamışıq? Siz mənim gözümə bir cür dəyirsiniz, başınızı harada itirmisiniz?

Bərbərzadə və Maral utanaraq başlarını aşağı dikirlər

Mirzə Qərənfil! Bəs necə olub ki, sən belə bir şeyə yol vermisən?

M i r z ə Q ə r ə n f i l. Müqavilənamə hər dəqiqə yoxlanır...

N ə s i r o v. Çox gözəl, ona mən özüm göz olaram. (*Çöldən oxumaq səsi eşidilir*) Bu nə səs-küydür? Bu "Segah" oxuyan kimdir?

Bu halda U s t a S e g a h oxuya-oxuya içəri girir.

U s t a S e g a h (*oxuyur*).

Hər kəsin, kim can üçün bir mehriban cananı yox,
Elə bilsin cismi var, amma içində canı yox.

N ə s i r o v (*Usta Segaha qəzəblə*). Sənin nə ixtiyarın var istehsalatda "Segah" oxuyursan.

U s t a S e g a h (*oxuya-oxuya*). Bu sualında buraxdın bir səhv.

N ə s i r o v. Bu nədir, Mirzə Qərənfil?.. Bu kimdir?

M i r z ə Q ə r ə n f i l. Bu mənim sizə dediyim məşhur rəngsazdır.

N ə s i r o v. Rəngsaz olanda nə olar? Gərək oxuyub istehsalatı başına götürsün? Ay yoldaş rəngsaz, yaxın gəlin.

U s t a S e g a h (*oxuyur*).

Düzdü, mən rəngsazam, rəng çəkirəm.
Evlərə bir yeni ahəng çəkirəm.

N ə s i r o v. Qurtardı. De görüm, nə üçün istehsalatda "Segah" oxuyursan?

U s t a S e g a h (*oxuya-oxuya*). Yenə də səhv buraxdın, qafil!

N ə s i r o v. Oxuma! Bu nədir, estrada artisti deyilsən ki? Açıq de görək, nə üçün "Segah" oxuyursan?

U s t a S e g a h (*oxuyur*). Mən "Segah" oxumuram, "Çahargah" oxuyuram.

N ə s i r o v. De görüm, bəs nə üçün oxuyursan? İstehsalatda oxumaq olmaz.

U s t a S e g a h. Olar, çünki:

Musiqi yaxşı qidadır bədənə,
Rəhmət olsun səni qoyub gedənə.

N ə s i r o v. Saxla şerin qabağını! Bu nədir, canım? Kişi, bu dəqiqə mənə de görüm, sən nə üçün dəmlənib gəlmisən?

U s t a S e g a h. Nə? Xeyr! Səhvin var! Mən həyat aşiqiyəm, şərab içmərəm.

N ə s i r o v. Bəs nə üçün iş üstə özünü bu cür aparırsan? Müxtəsər cavab ver! Boş söz lazım deyil! Vaxt lazımdır!

U s t a S e g a h. Əhsən, vaxt qızıldır, amma eşq...

Can vermə qəmi-eşqə ki, eşq afəti-candır...

Nəsirov. Saxla!

Usta Segah. Eşq afəti-can olduğu, məşhuri-cahandır.

Nəsirov. Saxla, yoxsa, bu saat milis çağırtdıraram.

Usta Segah. Milis? Milis nə üçün? Əvvəla, siz məni əylə-misiniz, mən sizi yox. İkinci, bu gün istirahət günüdür, istəsəm lap "Simayi-şəms" oxuyaram. Onun heç kəsə dəxli yoxdur. Üçüncü, məni bura dəvət ediblər, özbaşıma gəlməmişəm.

Nəsirov. Canım, sən nə uzunçu adamsan? Yaxşı, yaxşı, get işinə.

Usta Segah.

Gedirəm! Gedirəm rəng çəkəm dər-divara.
Sənət əhli qala bilməz avara.

(*Oxuya-oxuya gedir*)

Guşi qıl ey ki, bilirsən özünü vaqifi-kar,
Agah ol gör ki, nədir naleyi-ney, nəğməyi-tar.

Nəsirov (*onun arxasınca baxıb gülümsünür*). Məzəli adamdır. Maral... Sən bu gün işçilərin iş şəraitini yoxlamalısan. Bununçün sənə on beş dəqiqə vaxt verirəm.

Maral. On beş dəqiqənin içində, yoldaş Nəsirov...

Nəsirov. Gəl bir yerdə gedək və məsələni yerində həll edək, iş vaxtına yarım saat qalır, sən tək getsən, üç saat onlara nitq danışar-san. (*Bərbərzadəyə və Mirzə Qərənfilə*). Siz də gedin, öz işinizlə məşğul olun!

Mirzə Qərənfil. Yoldaş Nəsirov!

Nəsirov. Yox, bir kəlmə artıq söhbət olmamalıdır. Gedək, Maral yoldaş!

Maral və Nəsirov gedirlər.

Bərbərzadə. Həmişə bu Nəsirov yoldaşla söhbət eləyəndən sonra mənim iştaham açılır. (*Cibindən yemək çıxarır*). Mirzə Qərənfil, yemək istəyirsənmi? Buyur, qonaq ol!

Mirzə Qərənfil. Yox, Bərbərzadə, mənə toxunma mən dərd çəkirəm.

Bərbərzadə. Dərd çəkməkdənsə, istəyirsən verim bir papiros çək.

Mirzə Qərənfil. Yox, Bərbərzadə! Mənim ömrüm düyüm-lənib, həyat məni dar çəkmə kimi sıxır.

Bərbərzadə. Axı, nə olub, ay Mirzə Qərənfil? Açıq danış. Dərdin ailə dərdidir?

Mirzə Qərənfil. Axmaq deyilsəm ki, ailə dərdi çəkim.

Bərbərzadə. Bəs nə dərdin var?

Mirzə Qərənfil. Nə deyim, Bərbərzadə, mənim bu boyda şəhərdə dörd divarım yoxdur ki, içində bu qiymətsiz həyatımı sona çatdırım. Mənim dərdim otaq dərdidir, otaq, otaq!

Bərbərzadə. Bəs sən bu saat harada yaşayırsan?

Mirzə Qərənfil. Heç yerdə! Demək olar ki, mən bu saat heç yaşamıram.

Bərbərzadə. Axı haralarda gecələyirsən?

Mirzə Qərənfil. Heç yerdə. Gecəm qarışıb gündüzə, gün-düzüm qarışıb gecəyə, yuxu ilə həqiqəti bir-birindən seçə bilmirəm. Dünən gecə görürəm ki, mənə təzə ev veriblər, durub yüyürmüşəm Baksovetə ki, orderi verin. Deyirlər, nə order, nə zad... Əmi, yuxu görmüsən?..

Bərbərzadə. Ərizə yazmısan?

Mirzə Qərənfil. Soruşma, Bərbərzadə, soruşma. O qədər ərizə yazmışam ki, barmağım mazol olub. Ancaq nə olsun ki... heç bir nəti-cəsi yoxdur. Ümid nə qədər istəsən verirlər, amma otaq yox...

Bərbərzadə. Mirzə Qərənfil, heç qəm yemə, sənin otağın məndə.

Mirzə Qərənfil. Bərbərzadə, ayağa qalx, yanıma gəl, səni qucaqlayım.

Bərbərzadə. Yox, Mirzə Qərənfil, dayan, qoy mən də sənə dər-dimi söyləyim. Əgər mənim dərdimə əlac tapsan, sənin işin öz-özünə düzələcək.

Mirzə Qərənfil. De görüm, o necə dərddir ki, mənim dər-dimin dərmanıdır?

Bərbərzadə. Mənim dərdim eşq dərdidir!

Mirzə Qərənfil. Yaxşı, mənlik nə var ki?

Bərbərzadə. Sənlik çox iş var! Qulaq as. Mən onu sevmişəm, o da məni.

Mirzə Qərənfil. Yaxşı, daha sizə mane olan nədir ki? Bir otaq tapsanız işiniz düzələr.

Bərbərzadə. Otaq var. Mirzə Qərənfil, otaq var.

Mirzə Qərənfil. Hanı?

Bərbərzadə. Məndə, mənim bir evim var ki, dörd otağı, vannası, quxnası...

Mirzə Qərənfil. Bərbərzadə icazə ver, səni qucaqlayım. Demək, sənin dörd otağın var?

Bərbərzadə. Var, necə bəyəm?

Mirzə Qərənfil. İkisini ver mənə.

Bərbərzadə. Nə danışırsan, Mirzə Qərənfil? Heç otaqdan da əlborcu olar?

Mirzə Qərənfil. Əlborcu istəmirəm, həmişəlik bağışla.

Bərbərzadə. Ağzımda sənə deyirəm ki, xeyir işim var. Ancaq mən sənin dərdinə dərman eləyərəm. O qızı ki, mən sevirəm, onun da otağı var.

Mirzə Qərənfil. Çox əcəb!

Bərbərzadə. Biz qovuşan kimi o canan köçüb gələr mənim xanəmə. Onun da evini sənə bağışlayarıq.

Mirzə Qərənfil. Yox, Bərbərzadə, bu bir az nisyə söhbətə oxşayır. Yaxşı, bir də görək, mənim vəzifəm nədir?

Bərbərzadə. İndi o canan ilə mənim aramda bir məhəbbət körpüsü lazımdır, gəl, sən bu vəzifəni boynuna götür.

Mirzə Qərənfil. Deyirsən, otağı var?

Bərbərzadə. Var.

Mirzə Qərənfil. Onda razıyam. Bəs, yaxşı, de görüm, o canan kimdir?

Bərbərzadə. Maraldır!

Mirzə Qərənfil. Özü maral kimidir, yoxsa, adı Maraldır?

Bərbərzadə. Adı da Maraldır, özü də maral kimidir.

Mirzə Qərənfil. Adı Maraldır? Hansı Maral? Yoxsa bizim yerli komitə Maral?

Bərbərzadə. Özüdür ki, var!

Mirzə Qərənfil. Ədə, o Maral adama otaq verər? Allah verdiyi canı ondan ala bilmir.

Bərbərzadə. Ey, cy, özünü yığışdır. Məhəbbəti tənqid eləməzlər.

Mirzə Qərənfil. Yaxşı, de görüm, mən necə körpü olum? Vəzifəm nədir?

Bərbərzadə. Sənin qabiliyyətin var, ona bir şeir yaz. Şeir insanlardakı məhəbbəti daha da coşdurur. Şeri oxu, fikrini bil, görüm toyu

nə vaxta təyin eləmək istəyir. O zaman sənin otaq məsələn düzələr. Arxayın olummu?

Mirzə Qərənfil. Fikirləşərəm...

Bərbərzadə. Fikirləş! Hələlik sən yavaş-yavaş qafiyələri yığ, şeri yaz, mən də bir bəhanə ilə o cananı sənin yanına göndərim.

Sənubər içəri girir.

Sənubər. Mirzə Qərənfil! Bir dəqiqə və gizli.

Bərbərzadə. Başın ayrı işlərə qarışar, mən yaddan çıxaram ha...

Mirzə Qərənfil. Sən arxayın ol!

Bərbərzadə. Arxayınlıq içində olasan! (*Çıxır*)

Sənubər. Mirzə Qərənfil!

Mirzə Qərənfil. Mirzə Qərənfil sənə fəda olsun dəstəsi ilə.

Sənubər. Bəs hanı verdiyin vəd? Səni səhərdən axtarıram.

Mirzə Qərənfil. Baxobər olmamışam, mənim kəbutərim!

Sənubər. Kəbutər? Kəbutər nədir?

Mirzə Qərənfil. Quşdur.

Sənubər. Quşdur?

Mirzə Qərənfil. Bəli, quşdur. Dünyada nə qədər quş varsa, hamısına sən oxşayırsan, mənim şahinim!

Sənubər. Şahini başa düşdüm, yəqin yenə quşdur. Mirzə Qərənfil!

Mirzə Qərənfil. Mirzə Qərənfil sancılsın sənin yaxandan! Buyur görək.

Sənubər. Otaq tapa bilmədin?

Mirzə Qərənfil. Darıxma, mənim sığırçınım! Otaq üçün bir plan qurmuşam ki, gəl görəsən.

Sənubər. Plan?

Mirzə Qərənfil. Bəli, plan. İndi bu saat otaq tapmaq müharibə eləmək kimi bir şeydir. Gərək əlində hərbi planın olsun, sağ cinahın, sol cinahın olsun.

Sənubər. Mən düşmürəm.

Mirzə Qərənfil. Necə yəni düşmürsən?

Sənubər. Mən ixtisar eləyib danışıram. Demək istəyirəm ki, başa düşmürəm.

Mirzə Qərənfil. Burada mənim ürəyim səndən incidi. Sən niyə mənimlo ixtisar eləyib danışırsan?

Sənubər. Mən hamı ilə ixtisar eləyirəm.

Mirzə Qərənfil. Özgələri ilə eybi yoxdur, ancaq mənimlə yox.

Sənubər. Yoldaş Nəsirov deyir ki, az danış, çox iş gör. Düşürsən?

Mirzə Qərənfil. Hə, indi düşdüm.

Sənubər. De görüm necə plandır? Tez ol, darıxıram.

Mirzə Qərənfil. Qulaq as. Mən sənin yolunda bu qiymətsiz canımdan gündə on dəfə keçərəm.

Sənubər. Təşəkkür!

Mirzə Qərənfil. İndi bir de görüm, sən mənim yolumda neylərsən?

Sənubər. Eləyərəm.

Mirzə Qərənfil. Yox, daha bu cür ixtisar ilə danışmaq olmaz. Məhəbbətdə ixtisar olmaz. De görüm, mənim yolumda özünü qurban verərsənmi?

Sənubər. Buna bax ha... Mən özümü qurban versəm, sən qalarsan tək, gedib taparsan ayrısını.

Mirzə Qərənfil. Müvəqqəti deyirəm də. Yəni özünü yalandan qurban ver.

Sənubər. Düşmədim.

Mirzə Qərənfil. Bu saat düşərsən. Bir de görüm, Bərbərzadəni tanıyırsan?

Sənubər. Yıram.

Mirzə Qərənfil. İndi ki, "yırsan", çox gözəl. Haman Bərbərzadəyə bu yaxınlarda dörd otaq veriblər, sağında quxna, solunda vanna.

Sənubər. Hamı? Aldın?

Mirzə Qərənfil. Mənə verməyiblər ey, Bərbərzadəyə.

Sənubər. Ax, zadəyə.

Mirzə Qərənfil. Bəli, zadəyə, zadə də təkdir, subaydır.

Sənubər. Ona kim gedər axı?

Mirzə Qərənfil. Gedər, gedər! O dörd otağa səkkiz qız almaq olar. Mətləb onda deyil... Sənubər, əvvəlcə gözümün içinə de görüm, məni sevirsənmi?

Sənubər. Virəm.

Mirzə Qərənfil. Yox-yox... bütöv de!

Sənubər. Sevirəm.

Mirzə Qərənfil. Hə, əgər həqiqətən məni sevirsənsə, onda Bərbərzadəyə ərə get.

Sənubər. Necə? Səni sevib, Bərbərzadəyə gedim?

Mirzə Qərənfil. Yalandan deyirəm ey...

Sənubər. Mirzə Qərənfil, bir stəkan su hazırla, ürəyim gedəcək.

Mirzə Qərənfil. Yox, getməsin, suyu hələ açmayıblar. Qulaq as, mənim turacım! Gör bir nə plan qurmuşam. Mənə təzədən otaq, kim bilir, nə vaxt verəcəklər. Otaq tapmasaq da evlənmək olmaz.

Sənubər. Mirzə Qərənfil!

Mirzə Qərənfil. Mirzə Qərənfil xəlçə kimi sərilsin ayaqlarına. Qulaq as! Bərbərzadənin dörd otağı var. Sən Bərbərzadəyə yalandan ərə get, bir aydan sonra ayrıl. İşi ver məhkəməyə. Qanunla otağın ikisi sənə düşər, ikisi ona. Sən otaqlara sahib olan kimi ZAQS-dan təvəqqe eləyərik ki, bizi qeyd eləsin.

Sənubər. Mirzə Qərənfil!

Mirzə Qərənfil. Mirzə Qərənfil şəhid olsun sənin yolunda. Heç etiraz eləmə, işimiz düzəlib.

Sənubər. Axı, sən işin o biri tərəfini fikirləşmirsən.

Mirzə Qərənfil. Hansı tərəfini?

Sənubər. Bəlkə Bərbərzadə məni almaq istəmədi?

Mirzə Qərənfil. O məndə.

Sənubər. Bəs, bu biri tərəfi?

Mirzə Qərənfil. O hansıdır?

Sənubər. Bəlkə bir aydan sonra boşamaq istəmədi?

Mirzə Qərənfil. Ondan arxayın ol. İki gün də saxlamaz. Sənin qədrini o haradan biləcək? Razısan?

Sənubər. Yaxşı, onda fikirləşərəm.

Mirzə Qərənfil. Fikirləş, fikirləş, mənim tovuzum!

Sənubər. Yenə quş?

Mirzə Qərənfil. Quş olmayıb nə olacaq ki?

Nəsirov (*balkona çıxır*). Sənubər, kağızlar haradadır?

Sənubər. Şkafdadır...

Nəsirov. Gətir, qol çəkim.

Sənubər. Üstə! (*Çıxır*).

Nəsirov. Mirzə Qərənfil, o yana getmə, bura gəl!

Mirzə Qərənfil balkona çıxır, gözdən itirlər. Mürşüd bir tərəfdən, Sadıqov biri tərəfdən səhnəyə gəlib kefsiz yan-yana otururlar.

Sadıq. Küsdü.

Mürşüd. Mənimki də küsdü.

S a d ı q. Getdi.

M ü r ş ü d. Mən güclə yola saldım. Ayağını dirəmişdi ki, getmirəm.

S a d ı q. Nə istəyirdi?

M ü r ş ü d. Gəzmək. Deyir ki, səhərdən axşama kimi qol-qola verib düşək bu küçələrin canına. Bəs sənin nə istəyirdi?

S a d ı q. Uşaq.

M ü r ş ü d. Necə yəni uşaq?

S a d ı q. Uşaq da, balaca tifil. Axı mən övladı neyləyirəm? Ağlayıb işləməyə qoymayacaq.

M ü r ş ü d. Heyf, subaylıq, heyf, subaylıq! Başımızı noxtalayıb vermişik bir zənən xeylağının əlinə... Sadıq!

S a d ı q. Sadığın taleyi ucu dolaşıq düşmüş bir kələf sapa çevrildi.

M ü r ş ü d. Sadıq, sən necə bilirsən, bu bəladan qurtarmaq üçün bir çarə yoxdur?

S a d ı q. Yoxdur. Dünyanın bütün alimləri yığışıb baş sındırsalar, yenə də bir çarə tapa bilməzlər.

M ü r ş ü d. Alimlər tapa bilməsələr də, bizim köhnə kişilər onun dərmanını yaxşı deyiblər.

S a d ı q. Nədir?

M ü r ş ü d. Dişin ağrıyır – çək qurtar, qonşun pisdir – köç qurtar, arvadın pisdir – boşa qurtar. Çarə tapıldı?

S a d ı q. Ay Mürşüd, diş nə qədər bərk ağrısa, yenə çəkdirməyə adamın ürəyi gəlmir.

M ü r ş ü d. Bəs neyləyək? Sənətimizi, işimizi atıb gedək düşək parklara, bulvarlara? Yox, Sadıq, mənim arvadımı sən yaxşı tanımırsan, bir məsələ ki, onun beyninə girdi, ərsinlə qazıyıb çıxarmaq olmaz. Ayrılaq, qoy onlara dərs olsun.

S a d ı q. Razıyam. Mən getdim ərizəmi verməyə.

M ü r ş ü d. Mənim ərizəm çoxdan hazırdır, gedək.

S a d ı q. Bu gözəl bina tikilib qurtarandan sonra özləri səhvlərini başa düşəcəklər.

M ü r ş ü d. Güman eləmirəm. Mənim kimi canlı adam onu başa sala bilməyəndən sonra bu dilsiz bina neyləyə bilər?

S a d ı q. Bu dilsiz binanı biz öz sənətimizlə dilləndirəcəyik. Gedək.

M ü r ş ü d. Gedək.

Çıxırlar.

P ə r d ə

İKİNCİ PƏRDƏ

İKİNCİ ŞƏKİL

Yenə həmin yer. Axşamüstüdür. Səhnənin arxasından gülüş və oxumaq səsləri eşidilir. İşçilər mahnı oxuya-oxuya işdən çıxırlar.

B i r i n c i i ş ç i. Əcəb havadır!

İ k i n c i i ş ç i. Lap yorulmuşam. Gəl, buradan kəsmə yol ilə gedək, evə tez yetişərik.

İşçilər gedirlər. N ə s i r o v və B ə r b ə r z a d ə gəlirlər.

N ə s i r o v. Bərbərzadə!

B ə r b ə r z a d ə. Bəli, yoldaş Nəsirov!

N ə s i r o v. Avtobus hazırdırmı?

B ə r b ə r z a d ə. Hazırdır, yoldaş...

N ə s i r o v. Yoldaşsız!.. Bəs niyə xəbər verməmisən? Bunlar yenə evlərinə piyada getməyə hazırlaşırlar.

B ə r b ə r z a d ə. Bu saat... Yoldaşlar, siz zəhmət çəkib...

N ə s i r o v. Dayan, dayan, sən yenə mətləbi uzadacaqsan, qoy özüm deyim, yoldaş işçilər! (*İşçilərin bəziləri dayanır, bəziləri geri dönüb ona qulaq asırlar*) Bu parkın aşağısında bizim avtobusumuz dayanıb, siz onunla evinizə gedə bilərsiniz. Səhər də yenə onunla işə gələcəksiniz.

B ə r b ə r z a d ə. Ay yaxşı oldu ha, yoldaş Nəsirov. Yol gözümü almışdı.

N ə s i r o v (*Bərbərzadəyə*). Gördün? Bu cür müxtəsər danışmağı öyrən.

Hamısı çıxır. M ü r ş ü d, S a d ı q içəri girirlər.

M ü r ş ü d. Gəl, görək, gəl, avtobusa minib şəhərin o tərəflərini bir az hərlənək.

S a d ı q. Son gec, mənim gəzməli halım yoxdur.

M ü r ş ü d. Elə mənim də kefim yoxdur. Arvaddan küsməyim heç yadımdan çıxmır.

S a d ı q. Bu cür işi yaddan çıxarmaq olar?

M ü r ş ü d. Demək, cavan yaşımızda olduq dul kişi. Anketdə yazacaqlar: birini alıb boşayıb.

S a d ı q. Nə deyirlər, desinlər, qurtardıq. Araba yolu qurtardı. Həyatımızın dəmir yolu başlayır.

M ü r ş ü d. Tərsinə, ay dəli, həyatımızın əziyyətli, zəhmətli dəmir yolu qurtardı. Hava yolu başlandı. Mənim ruhum bu saat təyyarə kimi uçur.

S a d ı q. Düz deyirsən, mənimki də. Ruhumun təyyarəsinə minib, hara istəsəm, gedəcəyəm, nə istəsəm, eləyəcəyəm.

M ü r ş ü d. Gəzərik, oxuyarıq, oynayarıq, dünyanı tərsinə çevirib, başımıza keçirdərik.

S a d ı q. Ora bax, ay çıxır, ayın gözəlliyi adama ancaq subay olandan sonra çatırmış.

M ü r ş ü d. Təbiət gözümün qabağında qaytağı vurur.

S a d ı q. Eh, kefim qalxdı.

M ü r ş ü d. Nə qiyamətdir amma! Kef çəkirik...

S a d ı q. Yaxşı, bu gecə biz harada yatacayıq?

M ü r ş ü d. Təbiətin qucağında. Quşlar bu çiçəklərin, güllərin arasında necə yatırlarsa, biz də elə.

S a d ı q. Amma gecəni səhərə kimi quş olmaq məni heç açmır. Quş olmaq mümkündür bir saat, iki saat. Sonra bir yorğan ilə bir döşək tapıb arasına girsəm daha yaxşı olar.

M ü r ş ü d. Ruhdan düşmə. İkimiz bir otaq tapıb yaşarıq.

S a d ı q. Otaq tapmaq asandır ki? Arvadı boşamaqda yalnız bir şeyə heyfim gəlir, otağa. Sən mənim evimi görməmişdin. Çox gözəl, rahat ev idi. İki otaq, çarpayı, priyomnik, yazı stolu... heyf!

M ü r ş ü d. Mənim evim üçotaqlı idi. Otağın biri mənə məxsus idi. Eh, boz at da öldü, Murtuzəlibəy də.

S a d ı q. Heyf deyil sərbəst həyat, heyf deyil subaylıq! Cəhənnəmə olsun otaq da, priyomnik də, yazı stolu da!

M ü r ş ü d. Arvadı boşayandan sonra fikrim açılıb, iştaham açılıbdır. Bilirsən səsim necə açılıb. Lap bülbül kimi cəh-cəh vurur. Bir qulaq as... (*Oxuyur*)

Axşam oldu, hey,
Şamlar yandı.
Tez ol, tez ol, ay Sadıq,
Qaranlıqlandı.

Gülüşürlər.

S a d ı q. Nə kef çəkirik. Bax, arvadsız həyat buna deyərlər.

M ü r ş ü d. Oxumağına oxuduq, amma, doğrudan da, axşam oldu. (*Əsnəyir*)

S a d ı q. Bəli, axşam oldu, həmişə bu vaxtı mən çörək yeyərdim.

M ü r ş ü d. Həmişə bu vaxtı mən balkonda oturub çay içərdim. Amma bu gün indidən yuxum gəlir. Yuxum da bilir ki, işim dardadır, bu gün tez təşrif gətirir. Bilirsən nə var, Sadıq? Dur gedək Nəsirovdan icazə alaq, istirahət evinin otaqlarının birində gecəni keçirək.

S a d ı q. Nəsirov icazə verərmi?

M ü r ş ü d. Sən onun dilini bilirsən. O qayda ilə danışsan, icazə verər.

S a d ı q. Bu cür boş oturmaqdan bir şey çıxmaz. Bir təcrübə eləyək.

M ü r ş ü d. Sən get yoldaş Nəsirovu oralarda axtar, mən isə burada olum, bəlkə bu tərəflərə gəlib çıxdı...

S a d ı q. Uzaq getmə, sonra tapmaram. Qərib adamıq, ayrı düşməyək, bu skamyanın üstündəcə otur.

Sadıq çıxır. U s t a S e g a h içəri girir. Əlində rəng vedrəsi və fırça var.

U s t a S e g a h. Bərbərzadə, Bərbərzadə. (*Oxuyur*) Hüzura gəl, a Bərbərzadə, əlində badə, pay-piyadə. (*Mürşüdü görüb ona yaxınlaşır*) Aha, möhtərəm yoldaş mühəndis! Səni mən xeyli zamandır gəzirəm. Bərbərzadəni tapmıram ki, işıq düzəltdirib işə davam eləyəm.

M ü r ş ü d. Usta, bu qaranlıqda iş olmaz. Get, səhərdən gəlib işləyərsən.

U s t a S e g a h. Xeyr, Bərbərzadəni tapıb işığı düzəldə bilsək, səhərə kimi işləyərəm, bu binanın içini tamam qurtararam. O ki, qaldı xaricinə: xarici xeyli çətindir, bilirəm. Sizin yanınızda lövbər salmaq olar? (*Əyləşir*) Axşam vaxtı burada tək oturmağınızdan məqsəd nədir?

M ü r ş ü d. Heç, usta, elə-belə oturmuşam, kef üçün.

U s t a S e g a h. Xoşum var, əhsən! Təbiətdən ki, zövq almağı bacarırsan, demək, ruhun var. Bu gözəlliyə, bu rənglərə bax. Hələ sən yarpaqların öpüşməyinə diqqət elə. Buna təbiətin musiqisi deyərlər. Mən hər gecə bu musiqiyə qulaq asmamış evimə getmirəm. Hey... gənclik indi nə qədər xoşbəxtdir. Mən sənin yaşında olanda bütün günü fəhləlik eləyib gedərdim kasıb bir daxmaya. Çörəyimi göz yaşlarımla isladardım. Amma indi sən... Bu saat səni evdə rahat həyatın, gözəl ailə və bunlardan daha gözəl gənc xanımın gözləyir... Hey... ailə... arvad... xoşbəxtliyin əsasıdır. Neçə ildir evlisən?

M ü r ş ü d (*dik qalxır*). Usta, məni bağışla, tələsik getməliyəm, vacib işim var.

U s t a S e g a h. Bilirəm, oğul, bilirəm. Gənclik belədir, bir dəqiqə belə, öz ailələrindən ayrı yaşaya bilmirlər.

M ü r ş ü d. Bağışla məni! (*Pərt halda çıxır*)

U s t a S e g a h. Dayan, ay oğul, mən də sənlə yoldaşam. Bəs bizim Gülər necə oldu. Gülər, ay Gülər.

Xoş ol zaman ki, cavandım, vüsalə məhrəm idim,
Nə mübtəlayi-bəla, nə müqəyyədi-qəm idim.(*Çıxır*)

Usta Segah çıxır. Uzaqdan oxumaq və gülüş səsləri eşidilir. Ayın işığı yarpaqların arasından səhnəyə düşür. İ n c i əli qoynunda düşüncə içərisində səhnəyə çıxır. G ü l ə r bu biri tərəfdən gəlir. O yan-bu yana baxır. Getmək istərkən, İncinin orada olduğunu görür, yaxınlaşır.

G ü l ə r. Bağışlayın... İstirahət evində iş çoxdan qurtarıb?

İ n c i. Bilmirəm, mən özüm də onu bilmək istəyirdim.

G ü l ə r (*ona yaxınlaşıb diqqətlə baxır*). İnci!

İ n c i. Gülər!

Gülüşürlər.

G ü l ə r. Ay qız, bura gəl görüm. Sən burada neyləyirsən?

İ n c i. Bəs, sən burada neyləyirsən?

G ü l ə r. Mən bir ildir buradayam. Ərimlə gəlmişəm.

İ n c i. Mən də ərimlə gəlmişəm. Bir ildən artıqdır buradayam.

G ü l ə r. Bu bir ildə bir dəfə də sənə rast gəlməmişəm. Ay qız, teatra, kinoya, parka niyə çıxmırsan? Ər sənin üçün bu qədər şirin olub?

İ n c i. Məndə o xoşbəxtlik haradandır? O qədər dərdim var ki...

G ü l ə r. Dərdin nədir, ay qız? Mən bugünkü kimi heç bir zaman özümü xoşbəxt hiss eləməmişəm.

İ n c i. Amma mən bir tərəfdən xoşbəxtəm, o biri tərəfdən bədbəxt!

G ü l ə r. Bədbəxt tərəfi yaddan çıxart, xoşbəxt tərəflə yaşa... Gəl otur. İşləmirsən ki?

Skamyanın üstündə otururlar.

İ n c i. Yox, səhvim onda oldu ki, işləmədim, oldum ev qadını. Sən necə?

G ü l ə r. Mən işləyirəm. Beş-altı gündür ki, bəxtəvər olub məzuniyyətə çıxmışam.

İ n c i. Kaş bura gəlməyəydik!

G ü l ə r. Düz deyirsən. Bura mənə heç düşmədi. (*İnci ağlamsınır*). Yaxşı, daha ağlama. Mən ağlamıram, sən niyə ağlayırsan?

İ n c i. Mən ağlamayım, bəs kim ağlasın? Bir ölüm, bir ayrılıq, heç biri olmayaydı. Necə olsa, yoldaşlıqdır. Adama təsir eləyir.

G ü l ə r. İstəmirəm o cür yoldaşlığı. Sərbəstlik heyf deyil!

İ n c i. Demə, Gülər! Yanıram!

G ü l ə r. Ay qız, sən niyə yanırsan? Yoxsa?..

İ n c i. Necə sən niyə yanırsan? Bəs bu hadisələr mənim başımda deyil?

G ü l ə r. Ay qız, yoxsa sən də?..

İ n c i. Elə mən də... Ay qız, bəlkə sənin də başına gəlib?..

G ü l ə r. Bəs necə? Mən bayaqdan onu deyirəm də...

İ n c i. Sən məni kövrəltdin, Gülər. (*Gözünü silir*) Demək, ikimiz də bir dərddəyik. Ərə çoxdan getmişdin?

G ü l ə r. Bir ildən artıq idi. Ağlama! Möhkəm ol!

İ n c i. Necə olsa, ay Gülər, ər spiçka qabı deyil ki, boşalan kimi atasan. Ürək öz dərdini çəkir.

G ü l ə r. İnci, sənə rast gəldiyimə o qədər sevinirəm ki! Dur gedək, bir az dərdləşək. Gecəni də bizdə qalarsan.

İ n c i. Yox, ay Gülər, pəncərələri açıq qoyub gəlmişəm. Külək qalxar, vurub sındırar.

G ü l ə r. İstəyirsən gedək pəncərələri bağla, sonra yenə qayıdarıq.

İ n c i. Daha bir də sən niyə gedirsən?

G ü l ə r. Eviniz uzaq deyil ki?

İ n c i. Yox, bu parkın ayağındadır. Bəs sənin ki necə?

G ü l ə r. Yaxındadır, di tez get. Mən bu skamyanın üstündə oturub, səni gözləyirəm.

İ n c i. Yaxşı, bu saat... (*Çıxır*)

M ü r ş ü d içəri girir.

M ü r ş ü d (*Heç bir tərəfə baxmadan, gəlib əvvəlki yerində oturur. Bir qədər sükutdan sonra*). Bəs sən Nəsirov yoldaşın dalınca getməmisən? Burada oturub qəm dəryasına qərq olmaqdan nə çıxar?

G ü l ə r. Siz mənimləsiniz?

M ü r ş ü d (*dik qalxır*). Oy, bağışlayın, mən sizi səhv salmışam. Mənim yoldaşım bayaqdan burada oturmuşdu, elə bildim ki, yenə odur, bağışlayın. Dərd məni o qədər çaşdırıb ki, ağnan qaranı seçə bilmirəm.

Gülər. Dərd çəkən sizsiniz, yoxsa yoldaşınız?

Mürşüd. Yoldaşım da dərd çəkir, mən də dərd çəkirəm. Bağışlayın, mən sizi istirahətdən ayırdım. Ancaq icazə verin, burada oturub gözləyim. Yoldaşımla sözləşmişik ki, burada görüşək.

Gülər. Oturun, nə olar ki... Mən də burada yoldaşımı gözləyirəm.

Mürşüd. Həyat yoldaşınızı?

Gülər (*hirsli halda*). Onun əhəmiyyəti yoxdur!

Mürşüd. Yoxdur, yoxdur! Mən bir söz demirəm ki! Papiros çəkmək olar?

Gülər. Gah dərd çəkirsiniz, gah papiros çəkirsiniz. Siz nə qəribə adamsınız?

Mürşüd. Demək, papiros çəkməyə icazə vermirsiniz?

Gülər. Mənə nə var axı?.. İstəyirsiniz lap qəlyan çəkin. Mənimlə danışmayın, vəssalam!

Mürşüd. Sözüm yoxdur ki. (*Papiros yandırır*)

Gülər. Heç bilmirəm hər adamı niyə bu bağa buraxırlar? Bu, istirahət evinin bağıdır, camaat gəzmək istəyirsə, getsin bulvara.

Mürşüd. Siz mənimləsiniz?

Gülər. Yox, mən öz-özümə danışıram.

Mürşüd. Öz-özünüzə daha niyə mənim haqqımda danışırsınız? (*Hirslənib papirosu atır*)

Gülər (*kinayə ilə*). Papiros kötüyünü yerə atmağınızdan məlum olur.

Mürşüd. Nə məlum olur?

Gülər. Məlum olur ki, nə qədər də təmizliyi sevən adamsınız. Yazıq sizin arvadınızın gününə!

Mürşüd. Mənim arvadım yoxdur, subayam.

Gülər. Məni heç maraqlandırmır da. Nə borcuma!

Mürşüd. Amma yəqin sizin yoldaşınız lap xoşbəxtdir!

Gülər (*hirsli halda*). Mənim də yoldaşım yoxdur!

Mürşüd. Yoxdur, yoxdur! Mən bir söz demirəm ki!

Gülər. Yoxsa hələ bir söz də demək istəyirdiniz.

Mürşüd. Bağışlayın, siz hamı ilə bu cür top-tüfənglə danışırsınız?

Gülər. Məcbur eləməsələr, danışmaram.

Mürşüd. Mən sizi məcbur eləmişəm?

Gülər. Siz yox, eləyənlər olub.

Mürşüd. Yaxşı, başqalarının acığını məndən niyə çıxırsınız? (*Öz-özünə*) Bəs bu Sadıq niyə gecikdi?

Gülər. Nə Sadıq? Yoxsa, siz burada Sadığı gözləyirsiniz?

Mürşüd. Sadığı gözləyirəm. O yazıq da mənim kimi düşmüşdü bir cəncəl arvadın əlinə, güclə yaxasını qurtardı.

Gülər. Necə? Siz mənə cəncəl deyirsiniz?

Mürşüd. Deməli, siz Sadığın yoldaşısınız? Üzr istəyirəm, cəncəl sözünü təsadüfən dedim. İcazə verin, tanış olaq. Sizin yoldaşınız Sadığın sadiq yoldaşı...

Gülər. Mənim keçmiş yoldaşımın... (*Hirslə ayağa qalxır*) Heç o cür adamın adını mənim yanımda çəkməyin.

Mürşüd. Sadığın yoldaşı keçmiş olsun, keçməmiş olsun, mənim bacımdır. Bilirsiniz, bacı, Sadıq kimi oğlan dünyada bir dənədir.

Gülər. Xahiş elədim ki, ondan danışmayın. Ailə qurmağın, ailə səadəti yaratmağın əleyhinə olan bir adam nəinki mənim, heç bir qadının əri olmağa layiq deyil. Yəqin onu xarab eləyən də sizin kimi subay yoldaşlardır.

Mürşüd. Bağışlayın, mənim subaylığımın tarixi cəmisi bir neçə saatdır.

Gülər. Subaylıq nədir ki, hələ onun tarixi ilə də məşğul olursunuz?

Mürşüd. Deməli, təqsirlərin hamısı mənim üstümdə qaldı? Bağışlayın, Sadıq arvadını boşayıb, mən neyləyim?

Gülər. Mən bilirəm ki, onu yoldan çıxardan sənin kimi yoldaşlarıdır.

Mürşüd. Mən onun ən yaxın dostuyam, bacı, yaxın dost öz yoldaşını yoldan çıxartmaz.

Gülər. Mən hamısını yaxşı bilirəm.

Danışa-danışa çıxırlar. İnci ilə Sadıq gəlir.

Sadıq. Deməli, bacı, Nəsirov yoldaş gedib?

İnci. Bəli, mən onun maşınla getdiyini gördüm.

Sadıq. Deməli, bacı, sizin dediyinizdən belə çıxır ki, Nəsirov yoldaş material dalınca gedib?

İnci. Xeyr, mən elə söz demədim, çünki nə dalınca getdiyini bilmirəm.

Sadıq. Bağışlayın, bir az fikirliyəm. Siz burada bir nəfər görmədiniz ki?

İ n c i. Görməmişəm. Mənim də burada bir rəfiqəm vardı, elə buradaca oturmuşdu.

S a d ı q. Yox. Rəfiqə adlı arvad mən heç tanımıram.

İ n c i. Adı Rəfiqə deyil, Gülərdir.

S a d ı q. Nə? Gülər? Amandır, adını çəkməyin, gələr.

İ n c i. Siz Gülərdən niyə qorxursunuz ki?

S a d ı q. Necə qorxmayım? Bəs mənim başıma gələn bütün işlərin səbəbi Gülər deyil? Gecənin qaranlığında qapı-qapı gəzib pənah aparmalı bir yer axtarıram, hamısının səbəbi o deyil? (*Öz-özünə*) Bir odur, bir də ki, o uşaq...

İ n c i. Deməli, siz Gülərin yoldaşısınız?

S a d ı q. Yoldaşı deyəndə... bir az düz gəlmir... sabiq yoldaşıyam.

İ n c i. Sevinirsiniz?

S a d ı q. Bəs necə? Heyf deyil subaylıq? Açıq hava, açıq ürək. Spiçkanız var?

İ n c i. Heç qadında spiçka olar?

S a d ı q. Düzdür, səhv eləmişəm, qadınlar spiçkasız da yandırırlar.

İ n c i. Mən Gülərin sizin kimi əri olduğunu bilmirdim. Heç sizin kimi mədəni, qabiliyyətli kişi də arvadı özündən incidər?

S a d ı q. Axı məndə nə təqsir var, bacı? (*Öz-özünə*) Heç bilmirəm, bu Mürşüd harada qaldı.

İ n c i (*kəskin*). Mürşüd kimdir?

S a d ı q. Necə bəyəm, bacı, siz Mürşüdü tanıyırsınız? Mürşüd, ipək kimi bir oğlandır.

İ n c i. İpəyi korlamayın. Mürşüdün ipəklə yan-yana durmağa haqqı yoxdur.

S a d ı q. Aha, bacı, demək siz də bu cəbhənin mücahidlərindənsiniz?

İ n c i. Sizin kimi mədəni adamın ağzından belə sözlər eşitmək məni təəccübləndirir. Ailədən qaçmaq, ailə səadətini gecələr skamyalar üstündə keçirməyə dəyişmək bir cəbhə deyil. (*Ayağa qalxır*) İndi başa düşürəm ki, Gülər nə üçün sizdən dad çəkir. Haqlı imiş.

S a d ı q. Yox, bacı, bəlkə sizin məsələnizdə Mürşüdün səhvi var, amma mənim məsələmdə yalnız Gülər müqəssirdir. Axı siz bir fikir eləyin...

İ n c i (*sözünü kəsir*). İş işdən keçəndən sonra fikir eləməyin heç mənası yoxdur. (*Çıxır*)

S a d ı q (*tək*). Deməli, yenə də Gülər haqlı çıxdı, mən müqəssir? Deməli, təqsirlərin hamısı məndə imiş? Yox, dözəcəyəm, ömrümün axırına kimi sözümdən dönməyəcəyəm. Bu gecə mənim ilk subaylıq gecəmdir, subaylıq gecəsi nömrə bir.

M ü r ş ü d gəlir.

M ü r ş ü d. Sadıq! Sənin arvadın mənim abrımı bükdü ətəyimə, saldı yola.

S a d ı q (*qorxu içərisində*). Bura gəlmişdi?

M ü r ş ü d. Bəs necə?

S a d ı q. Amandır, Mürşüd, məni bir yerdə gizlət, rast gəlsəm, istirahət evi bünövrəsindən uçacaq.

M ü r ş ü d. Qorxma, heç vecinə də deyil. Amma mənimki yəqin bu saat gözünün yaşı ilə gül sulayır.

S a d ı q. Yox, aşna, sənin yoldaşın bu saat burada idi, səni də, hələ, üstəlik, məni də dünyada nə qədər maddə varsa, hamısı ilə müqəssir elədi.

M ü r ş ü d. Amandır, Sadıq, gəl paltarlarımızı dəyişək, məni tanımasın. Görsə, deyəcək dur dördüncü seansa özümüzü çatdıraq.

S a d ı q. Yox, aşna! O, gördüyün deyil. Seansların hamısı qurtarıb. Biz indi öz həyatımızın ikinci seriyasında yaşayırıq.

M ü r ş ü d. İkinci seriya gözümə bir az qaranlıq kimi görünür. Nəsirovu tapdın?

S a d ı q. Yox, deyir maşınları götürüb, taxta-şalban gətirməyə gedib.

M ü r ş ü d. Bəs biz neyləyək?

S a d ı q. Neyləyək? Mən nə bilim neyləyək! (*Skamyanın üstündə uzanır*) Deyirəm istəmirəm, deyir yox, mən deyən olacaq, istəyəcəksən, vəssalam! Neynək. Eybi yoxdur, sən deyən olsun!

M ü r ş ü d. Sadıq, Sadıq!

S a d ı q. Nə var, ədə, qoysana işimi görüm.

M ü r ş ü d. Nə iş görürsən ki?

S a d ı q. Gülərin özü ilə söhbət eləmək mümkün deyil, onun xəyalı ilə danışıram. Deyirəm qoy başı dinc yaşayaq, cığ-bığ nəyə lazımdır? Deyir yox, gərək insan nəslini artıram, neynək, artır da. (*Uzanır*) Bax, budur, bu mənim yataq otağım, bu çarpayım, bu da qu tükündən balışım. (*Çəkməsini başının altına qoyub uzanır*) İbtidai insanlar nə kef çəkirlərmiş? Heyf deyil subaylıq! (*Yatır*)

M ü r ş ü d. Sadıq, bizim arvad məndən çox giley-güzar elədi? O ki, məni o qədər sevir, çətin dözəcək. (*Ona yaxınlaşır, yuxuladığını görüb*) Bu yatıb ki! Nə olar, eybi yoxdur. Dost yolunda boran olar, qar olar. (*Onun üstünü örtür*) Mən ölməmişəm ki, budur ey... (*Uzanır*) Bu cür rahat həyata nə demişəm? Can, ay subaylıq!

İşıq sönür.

ÜÇÜNCÜ ŞƏKİL

Yenə həmin yer. M ü r ş ü d l ə S a d ı q skamyanın üstündə yatmışlar. Səhərin gözəl mənzərəsi, U s t a S e g a h ilə şagirdi G ü l ə r içəri girirlər.

U s t a S e g a h (*mənzərəyə tamaşa etdikdən sonra*). Ora bax, gecənin qatı qaranlığı səhərin müxtəlif rənglərinin içində necə əriyib gedir.

Kağıza fırça ilə bir neçə rəng çəkir.

İ k i n c i G ü l ə r. Sən neyləyirsən, usta? Məni də başa sal!

U s t a S e g a h. Mən səhərdən rəng borc alıram. Başa düşürsən?

İ k i n c i G ü l ə r. Düşürəm.

U s t a S e g a h. Əcəb eləyirsən, qulaq as. Mən elə boyalar işlədəcəyəm ki, bu istirahət evi hər zaman səhər rəngində olsun. İstirahət üçün gələn insanlara bu mənim rənglədiyim otaqlar desin ki: "Sabahınız xeyir". Bu rənglərin, bu ahəngin sirrini bilirsənmi?

İ k i n c i G ü l ə r. Bilmirəm, usta.

U s t a S e g a h. Bilmirsən, öyrənməlisən.

İ k i n c i G ü l ə r. Mən rəssamlıq məktəbinə girəcəyəm.

U s t a S e g a h. Yaxşı eləyəcəksən, əcəb eləyəcəksən. Dayan, dayan! Odur yarpaqların rəngi dəyişdi. Demək, günəş indicə çıxacaq. Hanı Bərbərzadə? Rəng verin, mən işləmək istəyirəm. (*Oxuyur*)

Saqi nə yaman dəyişdi halım,
Söyləşməyə qalmadı macalım.

İ k i n c i G ü l ə r. Usta, mən gedim Bərbərzadəni çağırım.

U s t a S e g a h. Get, mənə mane olma.

Gülər çıxır, usta diqqətlə təbiəti seyr etməyə başlayır.
B ə r b ə r z a d ə içəri girir.

B ə r b ə r z a d ə. Usta Segah, yenə xoruz banlamamışdan niyə buranı kəsdirmisən?

U s t a S e g a h. Mane olma, Bərbərzadə! Bir ora bax, bir o rəngə, o gözəlliyə bax!

B ə r b ə r z a d ə. Usta Segah! Elə boş-boş şeylərə sərf eləmək üçün mənim vaxtım yoxdur. De görüm, mənə dair qulluğun nədir?

U s t a S e g a h. Qulluğun böyük olsun.

Zadə – Bərbər mənə çox cövri-cəfa eyləsə də,
Mən ona eyləmərəm xeyir-duadan qeyri.

B ə r b ə r z a d ə. Usta Segah, gəl mənim vaxtımı alma, onsuz da iş başımdan aşıb, sözün nədir?

U s t a s e g a h.

Siz mənə verdiyiniz cümlə boyaqlar qurtarıb,
Lazımdır hamı rəng, rəngi-qaradan qeyri.

B ə r b ə r z a d ə. Deyəsən, usta, vurub gəlmisən?

U s t a S e g a h.

Guşi qıl, mən yarəmə məlhəm qoyub, məlhəmliyəm.
Xeyli səhvin var sənin, mən içməmişdən dəmliyəm.

B ə r b ə r z a d ə. Usta, araya söz qatma. İçmisənsə, səni işə buraxmaram. (*Birdən Mürşüd ilə Sadığı görür*) Aha, dinməyin, məsələ ayrı cürədir. Mühəndislər qucaq-qucağa yatıblar, özləri də lül-qənbər. Usta Segah! Heç yerə getmə, şahid olacaqsan.

U s t a S e g a h. İndi də sən mənim vaxtımı alırsan, Bərbərzadə! Mənə rəng ver!

B ə r b ə r z a d ə. Rəng sənin üçün tədarük eləmişəm, bu saat gedib təhvil ala bilərsən. Naryadın da var. Qaldı ki, bunlar... (*Mürşüdlə Sadığı göstərir*) Mən gedib yoldaş Nəsirovun özünü buraya dəvət eləyəcəyəm. (*Skamyanın altına qoyulmuş boş rəng şüşəsini götürüb baxır*) Xalis araqdır. Bu da ki, əyani sübut.

Bərbərzadə şüşəni yerinə qoyur. İ k i i ş ç i səhnəyə çıxır.
Bərbərzadəni görüb ona yaxınlaşırlar.

B i r i n c i i ş ç i. Yoldaş Bərbərzadə, mənə bir dənə bilet.

B ə r b ə r z a d ə. Yoxdur.

İ k i n c i i ş ç i. Yoldaş Bərbərzadə, mənə heç düşməyib.

B ə r b ə r z a d ə. Yoxdur.

B i r i n c i i ş ç i. Axı niyə yoxdur?

B ə r b ə r z a d ə. Yoxdur, ay atam balası, yoxdur. Başa düşürsən? Qurtarıb, yoxdur.

B i r i n c i i ş ç i. Bəs biz açılışa gəlməyək?

B ə r b ə r z a d ə. Sizə yerli komitə bilet verib, ya yox?

B i r i n c i i ş ç i. Yox, bizə dedilər ki, sən verməlisən, bu da işdir?

B ə r b ə r z a d ə. Yoxdur. Səhərdən ağzıma bir tikə çörək almamışam. Qoysanız bir yaşayaq. (*Yemək çıxarır*) Mən də adamam, ya yox? İki gündür bu bilet üstündə iki kilo arıqlamışam. Belə olmaz axı.

N ə s i r o v içəri girir.

N ə s i r o v. Bu nə haraydır? Bərbərzadə, sən niyə işləri qoyub, burada qurdalanırsan?

B ə r b ə r z a d ə. Yoldaş Nəsirov!

N ə s i r o v. Yoldaşsız və Nəsirovsuz. Sənə bir dəqiqə vaxt verirəm. De görüm, nə olub?

B ə r b ə r z a d ə. Mən iş üçün gedirdim, bunlar çıxdı qabağıma, ha deyirəm başa düşmürlər ki, düşmürlər.

N ə s i r o v. Bir dəqiqən qurtardı, amma sən heç bir söz başa sala bilmədin. (*İşçilərdən birinə*) Bəs sən kimsən?

B i r i n c i i ş ç i. Mənim adım Cəlildir.

N ə s i r o v. Cəlil olanda nə olar? Gərək buralarda boş-boşuna hərlənəsən? De görüm nə olub?

B i r i n c i i ş ç i. Bu yoldaş...

N ə s i r o v. Yoldaşsız.

C ə l i l. Mən yoldaşsız gəlmək istəyirəm, bircə bilet lazımdır.

N ə s i r o v. Bərbərzadə, bu nə deyir, nə bilet?

B ə r b ə r z a d ə. Açılış gecəsinə bilet istəyirlər, məndə olanları çoxdan...

N ə s i r o v. Müxtəsər.

B ə r b ə r z a d ə. Müxtəsər bunlar... bilet...

N ə s i r o v. Yaxşı, başa düşdüm. (*İşçilərə*) Yoldaşsız niyə gəlirsiniz? Yoldaşınızı da gətirin. Yaxşı, Bərbərzadə, işçilər hələ bilet ala bilməyiblərsə, bəs sən bu qədər bileti kimə paylamısın? (*İşçilərə*) Siz gedin, yoldaşlar, biletlərinizi gəlib məndən alarsınız.

İşçilər gedirlər.

B ə r b ə r z a d ə. Bəs bunlar, yoldaş Nəsirov?

N ə s i r o v. Bunlar kimdir?

B ə r b ə r z a d ə. Mühəndislərdir. Evlərini qoyub burada yatıblar. Yəqin keflidirlər.

N ə s i r o v. Neçə dəqiqədir yatırlar?

B ə r b ə r z a d ə. Dəqiqə nədir, saat nədir, yəqin axşamdan yatırlar.

N ə s i r o v. Onları oyat görək.

B ə r b ə r z a d ə (*oyadır*). Adə ey, Mürşüd, Sadıq!

Mürşüd ilə Sadıq durub otururlar.

N ə s i r o v. Cavab verin görək, nə üçün evinizə getməyib burda yatmısınız?

M ü r ş ü d. Nə? Şeydir... Biz heç yatmışıq ki?

S a d ı q. Biz sizi axtarırıq, yoldaş Nəsirov! Bizə səhərə kimi qalmağa yer verin.

N ə s i r o v. Necə səhərə kimi? Elə indi səhərdir də.

S a d ı q. Nə? Səhərdir? Yəqin bu gün səhər vaxtından qabaq açılıb.

B ə r b ə r z a d ə. Kefli olduqlarını danmaq istəyirlər.

S a d ı q. Bərbərzadə, təhqirinə sərhəd təyin elə. Biz kefli deyilik.

B ə r b ə r z a d ə. Kefli olmasanız araq şüşəsini yanınıza qoyub yatmazsınız. İçib məsuliyyəti-zadı yaddan çıxardıblar, başlarını qoyublar istirahət evinin skamyasının üstünə.

Boyaq şüşəsini götürüb Nəsirova göstərir.

M ü r ş ü d. Bu şüşədən bizim xəbərimiz yoxdur.

S a d ı q (*şüşəyə baxır*). Bu heç araq şüşəsi deyil.

B ə r b ə r z a d ə. Yoldaş Nəsirov, özünüz baxın.

N ə s i r o v. Bu ki, sudur. Bərbərzadə, harada görmüsən ki, su içib keflənsinlər? Bu nə böhtandır?

B ə r b ə r z a d ə. Yoldaş Nəsirov, bəlkə ayrı yerdə içib gəliblər. Üstündən sərin-buzlu su içirlərmiş.

N ə s i r o v. Sadıq, sən de görüm. Ancaq müxtəsər! Kefli idiniz?

S a d ı q. Daha pis, yoldaş Nəsirov!

N ə s i r o v. Yoldaşsız.

S a d ı q. Daha pis, Nəsirov!

N ə s i r o v. Nəsirovsuz!

S a d ı q. Daha pis, yoldaşsız və Nəsirovsuz.

Nəsirov. Sən sus, uzunçusan. Mürşüd, sən cavab ver, nə üçün burada yatmısınız, evinizə getməmisiniz?

Mürşüd. Bizim evimiz yoxdur.

Sadıq. Ayrıldıq, evsiz qaldıq. Müxtəsəri budur.

Nəsirov. Bir gör də. Bu da bizim mühəndislərimiz. Əlbir olub böyük işlər görməkdənsə, yeni memarlıq abidələri yaratmaqdansa, arvad boşayırlar. Bu cür ev-eşiyinizi atıb, səfil adamlar kimi skamyaların üstündə gecələmək sizin adınıza da layiq deyil, vəzifənizə də. Bərbərzadə, elə etmək lazımdır ki, bu biabırçılıq kütlənin içərisinə yayılmasın. Tez bunlara gecələmək üçün bir yer tap. (*Mürşüdlə Sadığa*) Siz də əqlinizi başınıza toplayın, arvadlarınızla barışın. Özünüz cavansınız, amma başınız köhnə fikirlərlə doludur. (*Getmək istəyir, birdən geri qayıdır*) Evin texniki proyektində bəzi məsələlər düz çıxmır, bir də yoxlamaq lazımdır. (*Çıxır*)

Radio vasitəsilə səhər idmanı verilir: "Sabahımız xeyir olsun! Diqqət! Səhər idmanına başlayırıq". Mürşüd və Sadıq idmanla məşğul olurlar. Bərbərzadə oturur, portfelindən çörək çıxarıb yeməyə başlayır.

Bərbərzadə. Of... Bu Nəsirov ilə işləmək mənə heç sərf eləmir. Hər onunla danışandan sonra elə acıram ki, elə bil üç gündür yemək yeməmişəm. (*Mürşüdlə Sadığa*) Axı, ay rəhmətlik uşağı, sizdən kim təvəqqe eləmişdi ki, arvadlarınızı boşayasınız?

Mürşüd. Ay Bərbərzadə, arvad boşamaq üçün bir təvəqqe eləmək də lazımdır? Sən heç arvad boşamamısan?

Bərbərzadə. Mən heç evlənmişəm ki?

Sadıq. Xoşbəxtsən, Bərbərzadə! Evlənmək yaman cəncəl işdir.

Bərbərzadə. Əsl cəncəl iş subaylıqdır. Yaxşı, sizə otaq haradan tapım? Mən şəhər soveti deyiləm ki, mən otaq paylayan deyiləm ki? Qələt elədim zavxoz oldum?

Mürşüd. Qəm yemə, Bərbərzadə, bizə otaq lazım deyil.

Bərbərzadə. Ay sağ ol. Bəs, Nəsirova kim cavab versin?

Sadıq. Biz deyərik ki, özümüz istəmədik.

Bərbərzadə. Yox, atam, görünür, Nəsirovu siz yaxşı tanımırsınız. Sözünün üstündə möhkəm duran adamdır. Bir tapşırıq verdi, qurtardı. Yerinə yetirməmiş əl çəkməz.

Sadıq. İndi ki, elədir, onda bizim üçün otaq tap. Kim istəməz ki? Bərbərzadə, sizin cibinizdə yekə yemək xana varmış.

Bərbərzadə. Yaxşı, mən bir az yeyib qərara gəldim. Hələlik, arvadlarınızla barışıncaya qədər gedək bizə, mənim evimdə qonaq olun.

Mürşüd. Çox yaxşı, gecə gəlib sizdə qalarıq.

Bərbərzadə. Yox, indi gedin ayağınız evə dəysin. Bir az da əl-üzünüzü yuyub sərinləyin, sonra gəlib Nəsirova deyin ki, düzəldi. Yoxsa o məni dinc qoymaz.

Sadıq. Hələlik bizim burda işimiz yoxdur, gedək, Mürşüd.

Bərbərzadə. Bu da mənim evimin açarı. Buyurun, gözüm üstə yeriniz var.

Üçü də çıxır. Mirzə Qərənfil ilə Maral içəri girirlər.

Maral. Mirzə, bir yanını yerə qoy, mənə yaxşı mültəfit ol.

Mirzə Qərənfil. Yanımı yerə qoymamışdan da mültəfit olmağı bacarıram. Sən sözünü danış. Ancaq üzvlük haqqı barəsində danışmaq istəyirsənsə, nahaq zəhmət çəkirsən. Lap altıma qu tükündən döşək də qoysan, məndən bu saat üzvlük haqqı qopara bilməyəcəksən.

Maral. Mirzə, üzvlük haqqını tezliklə yaddan çıxart.

Mirzə Qərənfil. Çıxartdım.

Maral. Gedib mənim tərəfimdən o dildara de ki... Bağışla. Mirzə, mən səni qardaşlığa qəbul eləmişəm. Ona görə də bu cür açıq danışıram. O dildara de ki...

Mirzə Qərənfil. O dildar kimdir? Əvvəl sən onu mənə de!..

Maral. O da, özün bilirsən ki, Bərbərzadə. Ona de ki, mənim fikrim qətidir. Əgər onun da fikri qətidirsə, axır sözünü desin.

Mirzə Qərənfil. Yaxşı, elə təkcə bunu deyim?

Maral. Dalını onunla özümüz danışarıq. Daha sənə zəhmət vermərəm.

Mirzə Qərənfil. Hörmətin artıq olsun.

Daldan Bərbərzadənin səsi gəlir.

Bərbərzadə. Ay balam, yoldaş Nəsirov özü paylayır, yoxdur, yoxdur.

Maral (*həyəcanla*). Mirzə, məni çatdır doktora, ürəyim bir cür olur.

Mirzə Qərənfil. Bax, buradan getsən, doktorxanaya çatarsan.

Maral. Ona mənim sözlərimi deməmiş olma.

Mirzə Qərənfil. Arxayın ol.

Bərbərzadə səhnəyə gəlir. Maralı görüb özünü itirir.

Bərbərzadə. Məni qocaltdınız, daha bəsdir, məni çərlətdiniz, daha bəsdir! (*Maral utancaq çıxır*) Mirzə Qərənfil, bu nə işdir məni saldın? Bu nə bilet oyunu idi mənim başıma gətirdin? Otur görüm.

Mirzə Qərənfil. Çox sağ ol, oturmuram, çox oturmuşam.

Bərbərzadə. Mən ölüm, otur, Mirzə! Nə qədər ki, camaat yaxamdan əl götürüb, iki kəlmə danışaq. Bəlkə mənim sözümü o canana yetirəsən. Spiçkanı mənə ver, görüm.

Mirzə Qərənfil. Papirosun yanır ki.

Bərbərzadə. Hə, doğrudan da... İndi bir mənə de görüm, Mirzə, mənim tapşırığıma əməl eləmisən, ya yox?

Mirzə Qərənfil. Hansı tapşırığı deyirsən?

Bərbərzadə. Şeri.

Mirzə Qərənfil. Yazmışam.

Bərbərzadə. Mirzə, sən məni sevindirdin. Oxu görüm. (*Cibindən yemək çıxarır*) Yemək yeyirsən?

Mirzə Qərənfil. Yemək istəmirəm, vədə vəfa istəyirəm.

Bərbərzadə. Vədə verilib, yerinə yetiriləcək. Mən kişiyəm, verdiyim söz qəbzdən möhkəmdir. Oxu!

Mirzə Qərənfil. Bu saat oxuyum, qulaq as:

Bu nazik qəlbimin soltanı sənsən,
Dünyanın ən nazlı cananı sənsən.

Bərbərzadə. Əcəb demisən, a Mirzə! Amma bir fikirləş ha, o nazik sözü bir az qorxuludur.

Mirzə Qərənfil. Qorxulu niyə olur ki?

Bərbərzadə. Deyər, bəs, mən ona rəmz atıram. Maral, maşallah, əndamlıdır axı.

Mirzə Qərənfil. Ürəyinə pis fikir gətirmə, dalına qulaq as:

Sənsiz sükut ilə keçir həyatım,
Ürəkdə yaradan tufanı sənsən.

Bərbərzadə. Sərçəni lap gözündən vurmusan, Mirzə. Həqiqətən, onu görəndə bədənimdə bir tələtüm olur ki, mən boyda adamı yırğalayır.

Mirzə Qərənfil. Hələ gör nələr yazmışam:

Kim öyrədib sənə naz-qəmzəni.

Bərbərzadə. Pəh, pəh, pəh! Burasında lap fantan eləmisən.

Mirzə Qərənfil.

Kim öyrədib sənə naz-qəmzəni,
Sevgi quyusunun kankanı sənsən.

Bərbərzadə. Kankan nədir, Mirzə?

Mirzə Qərənfil. Kankan quyuqazana deyirlər.

Bərbərzadə. Acığı gəlməz ki?

Mirzə Qərənfil. Acığı niyə gəlir? Qulaq as:

Sənə qurban olsun, bu Bərbərzadə,
Yerli komitənin aslanı sənsən.

Bərbərzadə. Hə, bu olmadı. Onu poz!

Mirzə Qərənfil. Bir kəlmə də pozmaram, xoşuna gəlmir?

Bərbərzadə. "Sənə qurban olsun" sözü ürəyimdəndir, amma aslanda ağ eləmisən, poz.

Mirzə Qərənfil. Bir kəlmə də əl vurmaram. Necə ki, aslan şikara çıxanda nərə çəkir, o da sənin ürəyini şikar eləyib nərə çəkir. Mənası budur, başa düşdün?

Bərbərzadə. Acığı gəlməz ki?

Mirzə Qərənfil. Yəqin bilirəm ki, xoşu gələcək. İndi mən gedib sənin cananını tapıb şeri təqdim eləyim.

Bərbərzadə. Amandır, Mirzə, ümidim sənədir.

Mirzə Qərənfil. Çünki oldun dəyirmançı, çağır gəlsin dən, Koroğlu!

Bu nazik, qəlbimin soltanı sənsən...

Şeri oxuya-oxuya çıxırlar. İnci və Gülər səhnəyə gəlirlər.

İnci. Ay qız, o qədər də qabağa keçmə, ayıbdır.

Gülər. Gəl bəri. Mən çox maraqlanıram, görək bizim kişilər gecəni harada keçiriblər?

İnci. Onlar harada keçiriblər, bilmirəm, amma mən səhərə kimi gözümü yummamışam.

Gülər. Mənim heç vecimə deyil. Qoy başı daşa dəysin, özü yorulanda suyu süzülə-süzülə üstümə gələcək.

İ n c i. Sənin ürəyin bərkdir. Lap qız vaxtından mənim ürəyimin ipləri bir az nazikdir. Gecəni səhərə kimi ürəyimdə öz hərəkətlərimi, bir də onun hərəkətlərini təhlil eləmişəm. Əslinə qalsa, ikimizdə də təqsir var. İstəsəydik, işi bu dərəcəyə çatdırmazdıq.

G ü l ə r. Səninki lap nahaqdır, İnci. Sənin yoldaşın çox mədəni, qabiliyyətli oğlandır, o cür axmaq şey üstə adam ailəni dağıdar?

İ n c i. Bəs özünü niyə demirsən?

G ü l ə r. Hə, mənim işim lap ayrı işdir. Mənim yoldaşım... (*Hirsli halda*) Of, mənim yoldaşım!

İ n c i. Sənin yoldaşın da çox qabiliyyətlidir. Səndən ayrılmaq o yazığı elə çaşdırıb ki, sən onun gözünü elə qorxutmusan ki, bir kəlmə danışıb, yüz dəfə o yan-bu yana baxır.

G ü l ə r. Hələ gör mən onun başına nələr gətirəcəyəm. Balaca bir uşaq nədir ki, onun hələ anadan olmamışdan düşmənidir. Bir adam ki... (*Hirsindən sözünü qurtara bilmir*). Ah, gör onun başına nə gətirəcəyəm!

İ n c i. Yaxşı, yaxşı, çox hirslənmə. Gələn var, ayıbdır, gedək.

B ə r b ə r z a d ə öz-özünə zümzümə edərək içəri girir.

B ə r b ə r z a d ə. Bu nazik qəlbimin soltanı sənsən. Pəh... Sevgi quyusunun kankanı sənsən... (*Birdən Gülərlə İncini görüb özünü düzəldir*) Mənə dair qulluğunuz, bacılar?

G ü l ə r. Sizə heç bir sözümüz yoxdur. Biz burada ayrı adamı axtarırıq.

B ə r b ə r z a d ə (*pərt halda*). Demək, məni axtarmırsınız? Çox şadam!

İ n c i. Bu tikintidə işləyən adamlar bu saat hardadırlar?

B ə r b ə r z a d ə. Bacı, bu saat hər kəs öz işi ilə məşğuldur, bu bir. Sabah istirahət evini açırıq, bu iki. Sizə kim lazımdır, deyin, bəlkə mən onların yerini bilirəm, bu da üç.

G ü l ə r. Mənə burda mühəndis Sadıq lazımdır.

İ n c i. Mənə də Mürşüd.

B ə r b ə r z a d ə. Yaxşı, bacılar siz onların nəyisiniz?

G ü l ə r (*əsəbi halda*). Biz onların heç nəyi deyilik.

İ n c i. Biz onların keçmiş arvadlarıyıq.

B ə r b ə r z a d ə (*bunu eşidib dik yerindən qalxır*). Aha, lap vaxtında gəlmisiniz. Mənə elə siz lazımsınız. Ay bacılar, sizə nə olub ki, yazıqları atmısınız küçənin ortasına? Xalq burada illərlə əlləşir, evlənə bilmir (*özünü göstərir*), siz isə gül kimi həyatınızı pozmusunuz ki, yaşamırıq.

G ü l ə r. Siz kimsiniz ki, bizə öyüd-nəsihət verirsiniz?

B ə r b ə r z a d ə. Mən? Bərbərzadəyəm!

G ü l ə r. Bərbərsiniz?

B ə r b ə r z a d ə. Təkcə bərbər deyiləm, zadəsi də var. Təsərrüfat müdiriyəm. Buyurun əyləşin, mən sizin üçün onları taparam.

İ n c i. Sağ olun, o qədər də təcili deyil. Zəhmət çəkməyin.

B ə r b ə r z a d ə. Onları tapmaq məndə. (*Maral içəri girir. Bərbərzadə, Maralı görən kimi sözünü dəyişir*) Hə... İndi isə, bacılar, zəhmət çəkib gedin, xalqın burada işi var. Maral yoldaş, buyurun, rəsmi işimizə başlayaq.

G ü l ə r. Bıy, ay yoldaş, sizə nə oldu?

B ə r b ə r z a d ə. Görsəm, deyərəm, bacı, görsəm, deyərəm, işim var. (*Gülər və İnci təəccüb içərisində səhnədən çıxırlar*) Canım, bunların əlindən göz açmaq olmur. Biri arvadını boşayır, o biri ərindən ayrılır. Bərbərzadə düşür işə. Buyurun, Maral xanım, əyləşin.

M a r a l (*kinayə ilə*). Bağışlayın, sizə mane oldum, şirin-şirin söhbət eləyirdiniz.

B ə r b ə r z a d ə. Bunlar bizim mühəndislərin arvadlarıdır. Ərləri atıb, gəlib yalvarırlar ki, mən kömək eləyim.

M a r a l. Özünüzə ki, umac ova bilmirsiniz, özgəsinə necə əriştə kəsirsiniz?

B ə r b ə r z a d ə. Umacı ovmuşam, hazırdır. Mirzə Qərənfil hamısını sizə deyər. Ürək sözümü mən şeir ilə yetirirəm. Mirzə Qərənfil sizə oxuyacaq.

M a r a l. Bəzilərinə özünüz oxuyursunuz...

B ə r b ə r z a d ə. Bizim mühəndisləri yoldaş Nəsirov göndərib ki, sabaha kimi mənim otağımda qalsınlar. Bu tərəfdən də arvadları gəlib çıxıb... Hərçənd vəzifəmə dəxli yoxdur. Nə eləyim ki?..

M a r a l. Nə eləmək olar ki?.. Alın, bu da akt. (*Ona bir dəstə kağız verir*)

B ə r b ə r z a d ə. Sağ olun! Buxalter məni lap zara gətirmişdi. (*Kağızlara baxır*) Bıy, bəs, buna imza atmamısınız.

M a r a l. Tək məndən nə çıxar ki, verin cüt-cüt imza atsınlar. (*Qadınların getdiyi tərəfə işarə edir*)

B ə r b ə r z a d ə. Heç kəsin imzası mənə lazım deyil, əlbəttə, sizinkindən başqa... Siz də ki, həm də komissiya üzvü...

M a r a l (*acıqlı halda*). Mən yoxlanmamış akta qol çəkə bilmərəm.

Bərbərzadə. Sçotları Nəsirov yoldaş özü yoxlayıb, sonra təsdiq eləyib.

Maral. Biz gözümüzlə gördüyümüzə inanırıq.

Bərbərzadə. Demək, mənə inanmırsınız? Bu saat Nəsirov yoldaşın şəxsən öz imzasını göstərərəm. Bu saat... (*Çıxır*)

Maral (*onun arxasınca*). Göstər, göstər. Belə-belə işlər üstündə səni o qədər incidim ki... (*Mirzə Qərənfil içəri girir*) Mirzə Qərənfil, yoxlanmamış akta niyə qol çəkirsiniz?

Mirzə Qərənfil. Maral bacı, o məsələlərə Nəsirov baxır, mən başqa işlərlə məşğulam.

Maral. Deyirlər, səndə mənə çatası bir əmanət var. Mirzə, oxu görüm, necədir?

Mirzə Qərənfil. Oxuya bilməyəcəyəm, Maral bacı. Buyur, özün oxu.

Maral. Mənim hövsələm çatmaz, sən oxu, qulaq asım.

Mirzə Qərənfil. Maral bacı, mənə nə deyirsən de, ancaq onu demə. Bu cür şeri oxumağa mən lap xəcalət çəkirəm.

Maral. Ay Mirzə, son də mənim qardaşım, nədən utanırsan?

Mirzə Qərənfil. Belə şeri adam düşməninə də oxumaz.

Maral. Oxu, xahiş eləyirəm.

Mirzə Qərənfil. Yaxşı, deyirsən oxuyum, ancaq qabaqcadan üzr istəyirəm. (*Şeri oxumağa başlayır*)

Bu nazik qəlbimin soltanı sənsən,
Dünyanın ən nazlı cananı sənsən.

Oxuyub diqqətlə Marala baxır. Ondakı dəyişiklikdən ləzzət alır.

Maral (*böyük həzz ilə*). Ay aman, nə yaxşı sözlərdir, özü yazıb. Maşallah, nə duzlu qələmi var!

Mirzə Qərənfil. Bəs necə, Bərbərzadənin qələminə söz yoxdur. (*Oxuyur*)

Sənsiz sükut ilə keçir həyatım,
Ürəkdə yaradan tufanı sənsən.

Maral. Bunu başa düşmədim. De görüm, mənası nədir? Maşallah, nə dərin yazır.

Mirzə Qərənfil. Mənası? Nə deyim, mənası budur ki, yəni, nə qədər ki, sən yoxsan, qulağımız dincdir. Sən gələn kimi səs-küy salıb tufan əmələ gətirirsən.

Maral. Heç dəxli var? Kişi dəli olub ha! Səs-küy salan mənəm, ya özüdür? Çığır-bağırından qulaq tutulur ki...

Mirzə Qərənfil. Bərbərzadənin eləliyinə baxma. Bir pis xasiyyəti var ki, özgəsinə qara yaxandır. Gör bir nə deyir:

Kim öyrədib sənə naz-qəmzəni?
Sevgi quyusunun kankanı sənsən.

Maral. Quyu qazanın bura nə dəxli var, ay Mirzə?

Mirzə Qərənfil. Nə bilim? Mənası bu çıxır ki, üzümə gülürsən, amma ayağımın altından quyu qazırsan.

Maral. Balam, bəs o mənə dedi ki, sənə sevgi şeri yazmışam?

Mirzə Qərənfil. O səni bu cür ələ salıb, amma sən ona yağlı sözlər göndərirsən.

Maral. Mirzə Qərənfil, o portfeli aç, içindən qaynanmış suyu çıxart, ver mənə.

Mirzə Qərənfil. Dayan, Maral bacı, hamısına qulaq as, sonra suyu birdən içərsən:

Sənə qurban olsun, bu Bərbərzadə
Yerli komitənin aslanı sənsən.

Maral. Kişi yəqin eşqin şiddətindən dəli olub. Buna ayrı rəng vermək olmaz.

Mirzə Qərənfil. Bəs necə, Bərbərzadənin bütün işləri rəngdir.

Maral. A balam, aslanın bura nə dəxli var?

Mirzə Qərənfil. Rəngdir də... Aslan harada olar? Meşədə. Demək istəyir ki, sənin yerin meşədir.

Maral. Demək, yerim meşədir? Çox gözəl! Demək, Mirzə Qərənfil, müxtəsəri deyir ki, istəmirəm.

Mirzə Qərənfil. Təkcə istəmirəm desə, dərd yarıdır. Deyir, onu görəndə iki gün çörək yeyə bilmirəm.

Maral. Bəlkə fağır sevindiyindən yeyə bilmir?

Mirzə Qərənfil. Xeyr, hirsindən. Qərəz ki, deyir o mənim gözümə görünməsin, yoxsa qan elərəm.

Maral. Allah vurmuşdu onu!

Mirzə Qərənfil. O da elə deyir.

Maral. Daha nə dedi? Gör ha, sən bir kişidəki həyasızlığa bax, heç bir şey gizlətmə, danış.

Mirzə Qərənfil. Dedi ki, mənim dalımca düşməkdənsə, gedib öz işini görsün. Onsuz da işləri tökülüb qalıb.

Maral. Sonra? Açıq danış, utanma.

Mirzə Qərənfil. Deyir ki, öz puluna qıymırsa, mənim hesabıma bir güzgü alıb üzünə baxsın, onda görər ki, mən onu görəndə nələr çəkirəm.

Maral. Demək belə? Çox gözəl! İndi o, dəlləkzadədir, kimdir, o bilsin ki, analar necə marallar doğub. Yarım saatdan sonra istirahət evində gərək tufan olsun. Anbara peçat vurmaq lazımdır. Ay qız, Həlimə! Ay uşaq, haradasınız? Mən bu saat aləmi bir-birinə qarışdıracağam. Mirzə, mən getdim onun məsələsini qəti qoymağa, sən görərsən burada nə qiyamət qopacaq.

Maral gedir. Bərbərzadə əlində protokol qayıdır.

Bərbərzadə. Mirzə, mən xoşbəxt ovçunun ovunu burada görmədin ki?

Mirzə Qərənfil. Ov qanı dama-dama bu saat getdi.

Bərbərzadə (*onun yanında oturur*). Yaxşı, Mirzə Qərənfil, ey mənim həqiqi dostum, de görüm, cananın fikri nədir? Mən deyirəm, toyu açılışdan sonra eləyək. Sən nə deyirsən?

Mirzə Qərənfil. Mənim nə sözüm ola bilər ki? Ancaq sən hansı toy barəsində danışırsan?

Bərbərzadə. Necə yəni hansı toy? Özün bilmirsən? Əvvəlcə onu de görüm, şeir xoşuna gəldimi? Neylədi?

Mirzə Qərənfil. Neylədi? Onu soruşma. Üzü bir vəziyyətə düşdü ki, mən mənliyimlə qorxdum, tüklərim biz-biz oldu.

Bərbərzadə. Nə deyirdi axı?

Mirzə Qərənfil. Deyirdi ki, o evlənməkdənsə, gedib özünə bir dayə tutsun. Çünki qocalıb haldan düşüb.

Bərbərzadə (*birdən son dərəcə pərt olur*). Necə, necə? Deməli belə, dalımı de görüm, daha nə deyirdi? Çox gözəl...

Mirzə Qərənfil. Deyirdi ki... (*Fikirləşir*) Anbarda bir güzgü yoxdurmu üzünə baxsın, görsün nəyə oxşayır?

Bərbərzadə (*hirslə ciblərini axtarır, papiros tapa bilmir*). Bir papiros ver.

Mirzə Qərənfil. Çəkən deyiləm.

Bərbərzadə. Dalını danış görüm.

Mirzə Qərənfil. Deyirdi ki... (*Fikirləşir*) Bir də mənimlə sevgi barəsində söhbət açsa, milisioner çağıracağam.

Bərbərzadə. Deməli, milisioner?

Mirzə Qərənfil. Bəli, milisioner...

Bərbərzadə. Bu saat məsələni həll eləyərəm. Sən onu, o maraldır, keçidir, nədir, onu görərsən... Heç hirsimdən bilmirəm nə danışıram. Bir papiros ver, görüm.

Mirzə Qərənfil. Ərz elədim ki, çəkən deyiləm.

Bərbərzadə. Gördün, Mirzə, vəfasız yar nə deyən sözdür?

Mirzə Qərənfil. Təqsir səndədir. Qızlar var ki, sənin üçün sinov gedirlər. Sən onları gözü yaşlı qoyub dağa-daşa əl atırsan.

Bərbərzadə. Hanı, axı, hanı? Bir elәsini göstər, gör mən o Maraldan necə intiqam alıram.

Mirzə Qərənfil. Lap götürək bizim Sənubər xanımı.

Bərbərzadə. Sənubər xanım nə deyir axı?

Mirzə Qərənfil. Deyir ki, məni fəraq oduna, ey nigar, yandırma.

Bərbərzadə. Lap elə-belə deyir?

Mirzə Qərənfil. Lap elə-belə.

Bərbərzadə. Yaxşı, Maral, mən sənin ciyərini lap kabab eləyəcəyəm. Mirzə, get, onu – o Sənubər xanımı yanıma göndər.

Mirzə Qərənfil. Bax, bu cür tez işləməyinə varam. Maral nədir ki, ona hələ məhəbbət də bağlayasan? Onu...

Maral gəlir. Mirzə Qərənfil səsini kəsir.

Maral. Yaxşı oldu ki, ikinizi də bir yerdə tapdım. Sözlərini təkrar elə. Mirzə Qərənfil mənim şahidim olacaq.

Bərbərzadə. O mənim şahidimdir. Mirzə Qərənfil, onun dediklərini bir-bir təkrar elə.

Mirzə Qərənfil. Mən, atam, özgə işinə qarışan deyiləm.

Maral. Mirzə Qərənfil, sonra mənim yanıma gələrsən, sözüm var.

Bərbərzadə. Sonra mənim də yanıma gələrsən, mənim də sözüm var.

Mirzə Qərənfil. Hər ikinizin hörməti yanımda əzizdir, baş üstə!

Mirzə Qərənfil tələsik çıxır. Bərbərzadə cibindən çörək çıxardır, Marala acıq vermək üçün ayağını ayağının üstünə aşırıb, yeməyə başlayır. Maral hirslə o yan-bu yana gəzir.

Maral. Çox yeyirsən ki, çox yaşayasan? Sənin kimilər deyil dünyanı korlayan? Cavanlar torpaq altına gedəndə, bilmirəm niyə qarımışlar yaşayırlar?

Bərbərzadə. Bu sözlərin sənin özünə dəxli var, nənəm yaşındasan, elə özün get də...

Maral. İndi ki, o cür şairlik bacarırsan, niyə zavxozluq eləyirsən? Zavxozluğun da elə şairliyin kimidir.

Sənubər içəri girir.

Sənubər. Bərbərzadə! Bir dəqiqə və gizli.

Bərbərzadə (*Marala*). Rica eləyirəm, bizə mane olmayın. Bu xanım ilə gizli sözümüz var.

Maral. Qadam sənə də, xanımına da. (*Çıxır*)

Bərbərzadə. Buyurun görək. Bağışlayın, sizin adınız həmişə yadımdan çıxır.

Sənubər. Adım Sənubərdir.

Bərbərzadə. Ay maşallah... Olsun, olsun, son necə deyirsən? Deyirsən ki, məni fəraq oduna, ey nigar, yandırma?

Sənubər. Mən başa düşmürəm.

Bərbərzadə. Düşmürsən?

Sənubər. Mirəm.

Bərbərzadə. Bura bax, Sənubər xanım, mən nə mişəm, nə də ki mirəm, bu saat eləyəm ki, xəncər vursan, bir damcı qanım yerə düşməz. Sözün var, söz danış, gedək yerli komitənin qabağında söhbət eləyək. Səninlə məsləhətim var.

Sənubər. Axı mənim işim var.

Bərbərzadə. Gəl, gəl, iş qaçmır ki... Gəl görüm, mən ona dağ çəkəcəyəm, dağ.

Gedirlər.

Pərdə

ÜÇÜNCÜ PƏRDƏ

DÖRDÜNCÜ ŞƏKİL

Yeni tikilmiş istirahət evinin böyük həyəti. Otaqlar rənglədiyindən iş stolları həyətə çıxarılmışdır. Qabaq planda Nəsirovun stolu. Arxa tərəfdə də stollar var. Stolların üstündə telefon aparatları qoyulmuşdur. Mürşüd və Sadıq səhnədə kağızlara, proyektlərə baxırlar.

Mürşüd (*Sadığa*). İndi isə gedək ikinci korpusun planını yoxlayaq.

Sadıq. Yox, hələ bir dayan. Bura bax, Mürşüd, bu iki yan otağın rəngi mənim xoşuma gəlmir, bir az dəyişdirmək necə olar?

Mürşüd. İş açarsan. Otaqları mən özüm neçə gün bundan qabaq yoxlamışam, rəngi də yaxşıdır, arxayın ol. (*Proyekti yığışdırmaq istəyir*)

Sadıq. Yavaş-yavaş, əzmə, mən bunları bizim professora göndərəcəyəm. O tapşırmışdı ki, bir yaxşı işiniz olanda göndərin, sərgiyə verəcəyəm.

Mürşüd. Hə, onda elə yerə qoyaq ki, çirklənməsin. Götür, bunları da götür. (*Yığışdırırlar*)

Sadıq. Gedək görək usta neyləyib. Qəribə rəngsazdır. Bundan sonra bütün tikintilərə bu ustanı çağıraq. Rəngsaz deyil, rəssamdır.

Mürşüdlə Sadıq gedirlər. Bərbərzadə anbardan çıxıb haqq-hesabla məşğul olur. Sənubər bir dəstə kağız götürüb Nəsirovun stolunun üstünə qoyur, qayıdanda Bərbərzadəni görüb dayanır.

Bərbərzadə (*ona diqqətlə baxır*). Niyə belə tovuz quşu kimi bəzənmisən? Toydur?

Sənubər. Mənim ürəyimdə var həmişə toy. Bəs son, yoldaş Bərbərov, nə üçün evlənmirsən?

Bərbərzadə. Eh. Nə asan danışırsan? Evlənmək halva deyil ki? Papaq papaqdır ki, onu bir aydan tez tikmirlər. Bir də... Otağım hələ boş deyil.

Sənubər. Otağın yoxdur?

Bərbərzadə. Otaq var ey, amma bu saat onun içində qonaqlarım var. Köçsünlər, sonra evlənəcəyəm.

Sənubər. Qonaq? Arvaddır?

Bərbərzadə. Arvad deyil, iki bığıburma kişidir. Mürşüdlə Sadığı tanıyırsan?

Sənubər. Yıram.

Bərbərzadə. Yıram nədir?.. Bu hövsələmin dar vaxtında sən də məni sarıma?

Sənubər. Demək istəyirəm ki, tanıyıram. Mən ixtisar ilə danışıram.

Bərbərzadə. Hə də. Haman Mürşüdlə Sadıq öz arvadlarını ixtisar eləyib, köçüblər mənim yanıma.

Sənubər. Həmişəlik?

Bərbərzadə. Yox, arvadları ilə barışanacan.

Sənubər. Bu oldu çox çətin məsələ. Sən Mirzə Qərənfilin yerini bilmirsən?

Bərbərzadə. Mirəm. Mən də ixtisarla danışıram.

Nəsirov içəri girir.

Nəsirov. Danışanda ixtisar eləyirsən, amma işində ixtisar yoxdur. Üç gündür, sənə cəftə tapşırılıb. Alıb gətirmirsən ki, ustalar işlərini qurtarsınlar.

Bərbərzadə. Mən istədiyim cəftələr hələ hazır deyil. Hər cəftəni bəyənmirəm axı, mən Bərbərzadəyəm.

Nəsirov. Lap Bərbərzadə olma, kim olursan ol. Sabah yerdən də olsa, mənə cəftə çıxart, vəssalam. Bu boyda binanı sənin cəftələrinə qurban eləyə bilmərik. O tərəfə gedirsənsə, zəhmət çək, Mürşüd ilə Sadığı bura çağır.

Bərbərzadə. Baş üstə. (*Çıxır*)

Nəsirov. Sənubər, gətir qol çəkim...

Sənubər. İndi.

Nəsirov stolun dalına keçib kağızlara qol çəkməyə başlayır.

Nəsirov. Əmrnamə hazırdır?

Sənubər. Hazırdır.

Nəsirov. Gətir, görüm.

Sənubər. İndi. (*Kağızları verir*)

Nəsirov. Qərənfil gəlib?

Sənubər. Lib.

Nəsirov. Nə əcəb? Heç Mirzə Qərənfildən çıxan iş deyil.

Sənubər. Yoldaş Nəsirov.

Nəsirov. De görək.

Sənubər. Bir neçə ərizə var.

Nəsirov. Ver bəri, sonra vaxtım olanda baxaram.

Sənubər. Gecikdirmək yaxşı deyil, indi qol çəkin, yoldaş Nəsirov.

Nəsirov. Qısa danış. Dedim ki, sonra baxaram.

Sənubər. Axı... Yoldaş Nəsirov...

Nəsirov. Yoldaşsız, Nəsirovsuz, de görüm, nə axı?

Sənubər. Axı içində var mənim də ərizəm.

Nəsirov. Hə, deməli dərdin varmış. Ərizən nə barədədir?

Sənubər. Otaq barədədir.

Nəsirov. Yaxşı, şəhər sovetinə yazaram.

Sənubər gedir. Usta Segah əlində fırça istirahət evinin balkonuna çıxır.

Usta Segah (*oxuyur*).

Nə yanar kimsə mənə atəşi-dildən qeyri,
Nə açar kimsə qapım badi-səbadən qeyri.

A Gülər, rəng gətir, rəngsiz olmaz işimiz,
Cümlə rənglər qurtarıb, rəngi-qaradan qeyri.

Nəsirov. Ey, yoldaş rəngsaz! İşlə, ancaq səs salma!

Usta Segah. O mümkün deyil.

Nəsirov. Necə mümkün deyil? Əlin işləsin, amma ağzın işləməsin. Bizə mane olursan.

Usta Segah. Ağız işləməsə, əl işləməz, əl işləməsə, ağız. (*Yenə də işlə məşğul olur. Oxuyur*)

Mən yeyirəm öz bağçamın barını,
Gülər xanım, gətirginən sarını.

Nəsirov (*hirslə ayağa qalxır*). Bərbərzadə! Hanı Bərbərzadə? Bu nədir? Özbaşınalıqdır? A kişi, kəs söhbəti, uzunçuluq eləmə!

Usta Segah. Şeir oxumasam, mən rəng çəkə bilmərəm, ey müdirtələsgən! (*Oxuyur*)

A Gülər, rəng gətir, rəngsiz aşmaz işimiz,
Cümlə rənglər qurtarıb, rəngi-qaradan qeyri.

Nəsirov. Qurtardı. Nöqtəni qoy!

Usta Segah. Baş üstə!

Mürşüd, Sadıq və Bərbərzadə gəlirlər. Bərbərzadə anbara keçir.

Mürşüd. Bunun harası düz gəlmir, yoldaş Nəsirov?

Sadıq Usta Segahı balkonda görüb, ona sarı yönəlir, işarə ilə danışmağa başlayır.

Nəsirov. Sadıq, fikrin burada olsun, rəngsazla sonra salamlaşarsan.

Sadıq. Salamlaşmıram. Bu rəngsaz o biri tərəfin pəncərələrini rəngləməyib, buranı başlayıb, səbəbini bilmək istəyirəm.

Nəsirov (*Usta Segaha*). Kişi, gəl bura, görək sən neyləmisən? (*Usta cavab vermir*) A kişi, səninlə deyiləm? Cavab niyə vermirsən?

Usta Segah. Dedin danışma, mən də danışmıram.

Nəsirov. Bir aşağı zəhmət çək!

Usta Segah balkondan çəkilir.

Mürşüd. Əgər Bərbərzadə material çatdırsa, bütün elektrik işi bu gün qurtarmalıdır.

Nəsirov. Axır zamanlar Bərbərzadə lap birtəhər olub. İş tapşırırsan, gözünü döyə-döyə baxır.

Sadıq. Bəlkə bir dərdi var.

Nəsirov. Onun da dərdi, yəqin sizin dərdinizdəndir.

Mürşüd. Bizim dərdimiz hansıdır?

Nəsirov. Hansı olacaq? İşimizin ən gərgin vaxtında ailə həyatınızı pozmusunuz.

Sadıq. Onun bura nə dəxli var?

Nəsirov. Çox dəxli var. Ailə məhəbbəti olmayan adamda iş məhəbbəti də ola bilməz. Sən kiçik bir ailəni sevə bilməyəndən sonra öz işini, öz təsərrüfatını necə sevə bilərsən? Yoxsa siz də dönmüsünüz Mirzə Qərənfilə? Gündə bir arvad alıb-boşayır, ev qalır arvada, qaçır üstümüzə, şəhər sovetinin də canını boğazına yığır, bizim də.

Mürşüd. Yoldaş Nəsirov.

Nəsirov (*onun sözünü kəsir*). İşə keçək. Deyin görək, bu şüşəbənd hara qədər gəlib çıxır?

Sadıq. Budur, bu pəncərənin yanına qədər.

Baş-başa verib proyektə baxmağa başlayırlar. Usta Segah gəlib onların yanında dayanır.

Usta Segah. Usta hazırdır.

Sadıq. Ay usta, dal pəncərələri nə üçün rəngləməmisən?

Usta Segah. Çünki o pəncərələr düz qurulmayıb.

Mürşüd. Necə yəni düz qurulmayıb?

Usta Segah. Yəni ki, o pəncərələrdən keçən işıq və hava yalnız quşları təmin eləyə bilər, insanları yox.

Sadıq. Özündən iş çıxartma, usta! Bütün ev bu proyekt əsasında tikilib.

Usta Segah. Oğul, mən saysız-hesabsız evlərdə işləmişəm, sizin kitabdan öyrəndiyinizi mənə həyat çoxdan öyrədib. O pəncərələr ümumi ölçüyə düz gəlmir, düzgün qurulmayıb. Oradan düşən zəif işıq mənim çəkdiyim rəngləri tamam öldürər ki...

Mürşüd. Bəlkə usta haqlıdır, Sadıq! Yoxlamaq lazımdır.

Nəsirov (*proyekti göstərir*). Gəl burada göstər, görək nə deyirsən? Maraqlı məsələdir.

Usta Segah. O uşaq oyuncağından başım çıxmaz. Mənim təcrübəm budur, bax. (*Evi göstərir*)

Sadıq. Çıxaq evin özündə göstər.

Usta Segah. Hə, o ayrı məsələ. İş olanda əyani, çox asandır bəyanı. Gedək.

Gedirlər. Bərbərzadə anbardan çıxıb, işləməyə başlayır. Maral səhnəyə çıxır. Bərbərzadəni görüb bərk əsəbiləşir, telefonu götürüb zəng edir. Nəsirovun stolunun üstündəki telefon zəng çalır. Xeyli keçdikdən sonra Bərbərzadə tənbəl-tənbəl qalxıb telefonun dəstəyini götürür.

Maral (*telefona*). Bu saat gəlirəm anbarı peçatlamağa, hazırlaş, təftiş eləyəcəyəm.

Bərbərzadə (*telefona*). Yoldaş Nəsirovdan başqa heç kəsin ixtiyarı yoxdur, məni təftiş eləsin.

Maral. Səndən soruşan olmayacaq... Bu saat gedirəm surğucun, peçatın dalınca. At nalı boyda peçatı anbarın qapısına vurandan sonra cümlə bərbərləri başına yığsan, yenə dadına çatan olmayacaq.

Bərbərzadə. İstər dünyanın cümlə maralları gəlsin, mən də o peçatı qırıb atacağam.

Maral (*telefonun dəstəyini hirslə çırpıb, qabağa gəlir*). Elə mən də onu istəyirəm. Bir cani kimi məhkəmə qabağında oturanda görərsən.

Bərbərzadə (*əli cibində onun qabağında dayanır*). Əgər məni mühakimə eləyən sən olacaqsansa, onda mən cani deyiləm, qəhrəmanam.

M a r a l. Qəhrəman sənsən? Sənin kimi qəhrəmanları çox iclasa qoyub ittifaqdan çıxartmışam.

B ə r b ə r z a d ə. Özbaşına ittifaqdan adam çıxartmaq sənin işin deyil. Bu qulluqdur, sevgi-məhəbbət-zad deyil ki, xain çıxasan.

M a r a l. Xainlər başqalarını xain adlandırmasınlar.

B ə r b ə r z a d ə. Xain olduğun Mirzə Qərənfilə dediyin sözlərdən məlum olur.

M a r a l. O sözlər sənin yazdığın şerin cavabı idi. Min dəfə şükür elə ki, bu saat mənim vaxtım yoxdur. Yoxsa səni Mirzə Qərənfillə üzləşdirərdim, qıpqırmızı qızarıb turpa dönərdin.

B ə r b ə r z a d ə. Üzləşdir, görək kim turpa dönəcək.

M a r a l. Görərik.

B ə r b ə r z a d ə. Görərik.

Hərəsi bir tərəfə gedir. M i r z ə Q ə r ə n f i l ilə Sənubər içəri girirlər.

M i r z ə Q ə r ə n f i l (*son dərəcə həyəcanlı*). Özü sənə dedi ki, qonaqlarım var?

S ə n u b ə r. Dedi.

M i r z ə Q ə r ə n f i l. Dedi arvadlarını boşayıb gəlib bizdə qalırlar?

S ə n u b ə r. Dedi.

M i r z ə Q ə r ə n f i l. Bəs sənin ürəyin getmədi?

S ə n u b ə r. Getmədi...

M i r z ə Q ə r ə n f i l. Nahaq. O yerdə gərək sən tirtap uzanaydın və çığıraydın ki, amandır, yoldaş Bərbərzadə, mühəndislər, bir hiylə ilə otağı əlimdən almaq istəyirlər.

S ə n u b ə r. Axı bundan nə çıxar, Mirzə Qərənfil?

M i r z ə Q ə r ə n f i l. Bədbəxt Mirzə Qərənfil sancılsın sənin yaxandan.

S ə n u b ə r. Bəs nə üçün bədbəxt?

M i r z ə Q ə r ə n f i l. Çünki bütün işlər korlanıb. İndi gərək mən düşüm Mürşüd ilə Sadığı arvadları ilə barışdırmağa ki, onlar oradan təşrif aparsınlar öz evlərinə. Burada mənim işim oldu iki smena. Buna can davam eləyər?

S ə n u b ə r (*naz ilə*). Mirzə Qərənfil!

M i r z ə Q ə r ə n f i l. Əzilmək vaxtı deyil, mənim bildirçinim! Sən get Bərbərzadəni tap, de ki, mən onu axtarıram.

S ə n u b ə r. Sonra?

M i r z ə Q ə r ə n f i l. Sonra heç nə. Onu tap, mənim yanıma göndər, görüm bu nə əhvalatdır.

S ə n u b ə r. Görüşənə qədər. (*Çıxır*)

M i r z ə Q ə r ə n f i l (*tək, öz-özünə*). Bunlar da arvadlarını boşamağa vaxt tapdılar. Yaxşı, tutaq ki, arvadları ilə barışdılar. Otaq boşaldı. Bərbərzadəni birtəhər tovlayıb otağın ikisini keçirdərik əlimizə. Sonra Sənubəri əkmək asandır. Çox oyan-buyan eləyər, işi verərik məhkəməyə. Otağın biri mənə qalar, biri ona. Gözəl tədbirdir.

Nəsirovun səsi eşidilir. Mirzə Qərənfil cəld səhnədən çıxır. M ü r ş ü d, S a d ı q, N ə s i r o v danışa-danışa gəlirlər.

N ə s i r o v. Hə, gördünüz ki... Ağlınız başınızda olsaydı, bu cür səhv eləməzdiniz! Usta Səgah kimi savadsız bir adam sizin, ali təhsilli mühəndislərin qələtini çıxarmazdı.

M ü r ş ü d. Olur da, yoldaş Nəsirov!

N ə s i r o v. Gərək olmasın. Biz gün-gündən irəli getməliyik. Bu evi qurtarandan sonra biz bir ali məktəb binası tikməyə başlayacayıq. Görək orada neyləyəcəksiniz. Belə getsə, əlbəttə, yaxşı iş meydana çıxartmaq çətin olacaq. (*Getmək istəyir, birdən dayanır*). Mənim tapşırıqlarımı yaddan çıxartmayın ha...

S a d ı q. Nə tapşırıq?

N ə s i r o v. Arvad... barışmaq... Yadınıza düşdü?

M ü r ş ü d. Düşdü, yoldaş Nəsirov, düşdü, amma...

N ə s i r o v. Uzatmayın, məsələni tez qurtarın! (*Çıxır*)

M ü r ş ü d (*onun arxasınca*). Bu nə deyir axı? Bu niyə bizi sıxışdırıb divara? Mən dedim arvaddan ayrılaram, başım cəncəldən qurtarar. Arvad boşamaq özü böyük cəncəl imiş.

S a d ı q. Əşi, bir tərəfə baxanda, yoldaş Nəsirov haqlıdır da... Budur, ikimiz də, elə bil, on günün içində on il qocalmışıq. Əvvəlki ruh yüksəkliyi, əvvəlki həvəs yoxdur. Fikrimiz harada isə başqa yerdədir.

M ü r ş ü d. Axı ayrı əlacı yox idi.

S a d ı q. Necə yox idi? Lap götürək məni, mənim özümü. Deyən gərək, ay axmaq, nə üçün arvadın sözünə baxmırdın? Uşaq deyir, çox gözəl, razı ol. Ondan yaxşı şey nə var ki? Totux-motux bir gözəl oğlum olacaqdı, onu çılpaqlandırıb alacaqdım qucağıma.

M ü r ş ü d. Uşağı sətəlcəm eləyərsən.

S a d ı q. Yayda, istidə. Qucağıma alıb, bax bu cür oxuyardım:

Dədəsi alsın qadasını,
Ellər sevsin balasını.
Hər evdə beş-beş olsun,
Bizim evdə on beş olsun.

O da mənə deyəcəkdir: "dədə". Pəh, nə qəribə olacaqdı! Mən – dədə?

M ü r ş ü d. Uşaqsız ailənin nə ləzzəti var ki?

S a d ı q. Nə bilim, o vaxt mənim başıma bir ağıl qoyan yox idi... O vaxt elə bilirdim ki, ailə mənə manc olur, irəli getməyə qoymur. Ailəsiz xoşbəxt olaram. Halbuki indi başa düşürəm, ailə xoşbəxtliyin ocağı imiş.

M ü r ş ü d. Biri varmış, biri yoxmuş... Nağıl danışırsan? Nə tez peşman olmusan?

S a d ı q. Doğrusu, yumşalmışam. Bu gün gəlib desə ki, "barışaq", gözüyumulu razı olaram.

M ü r ş ü d. Amma mənim heç vecimə də deyil. Özü gəlib xahiş eləsə də barışmaram.

S a d ı q. Məsələ onun və ya sənin yalvarmağında deyil ki! Məni düşündürən ayrı məsələdir; biz yenidən ailəmizə qayıtsaq, əvvəlki sevgi yenə də ola bilərmi?

M ü r ş ü d. Mən əminəm ki, sizin məhəbbətiniz əvvəlkindən də artıq olacaq, dərd mənim dərdimdir.

S a d ı q. Eh, nə danışırsan? Sənin yoldaşın ipəkdir. Sənin adını onun yanında çəkəndə gözləri yaşarır. Dünyada bir dənə məğlubedilməz qadın varsa, o da bizim Gülərdir. Ah, Gülər, Gülər... Düzü, mənim bütün ümidim açılış gecəsinədir. Bəlkə orada bir növ ilə vəziyyəti düzəldə bildik. Hə, sən nə deyirsən?

M ü r ş ü d. Nə bilim? İstəyirsən mən sənin yoldaşına dəvətnamə verim, gəlsin, barışın.

S a d ı q. Aha, yumşaldın, yumşaldın, ürəyin gedir, amma boynuna almağa utanırsan. Dur gedək, Bərbərzadədən iki dəvətnamə alaq, dur.

U s t a S e g a h eyvanda görünür.

U s t a S e g a h. Yoldaş mühəndislər, ikiniz də bura zəhmət çəkin.

S a d ı q. Amma bileti nə aldıq! Gəlirik, a kişi!

Onlar çıxırlar. N ə s i r o v, B ə r b ə r z a d ə və M i r z ə Q ə r ə n f i l səhnəyə gəlirlər.

N ə s i r o v. Mirzə Qərənfil, artıq işimizin axırıncı günləridir. Mənim bütün tapşırıqlarım saatı-saatına, dəqiqəsi-dəqiqəsinə hazır olacaqdırmı?

M i r z ə Q ə r ə n f i l. Hər şey hazır olacaq, yoldaş Nəsirov.

N ə s i r o v. De görüm, parkın bəzənmə planı kimdədir?

M i r z ə Q ə r ə n f i l. Bərbərzadədədir.

B ə r b ə r z a d ə. Məndə yoxdur, gərək Mirzə Qərənfildə olsun.

M i r z ə Q ə r ə n f i l. Bərbərzadə?! Onu mən sənə verdim.

B ə r b ə r z a d ə. Xeyr, əstəğfürullah, mən heç o planı görməmişəm.

N ə s i r o v. Mübahisə kəsilsin! Mirzə Qərənfil, bilmirəm sən mənim köməkçim olub neyləmisən? İşin səhərdən axşama kimi onunla, bununla pıçı-pıçı danışmaqdır. Bu cür işləmək olmaz. De görək, şüarlar hazırdırmı? Müxtəsər.

M i r z ə Q ə r ə n f i l. Müxtəsər, yox.

N ə s i r o v. Bəs nə hazırdır? Təcili olaraq planı tapıb işə girişin! Yerli komitəni tərpətmək lazımdır. Bu işləri görmək üçün sizə yarım saat vaxt verirəm.

B ə r b ə r z a d ə. Yerli komitəni heç üç aya tərpətmək olmaz, yoldaş Nəsirov!

M i r z ə Q ə r ə n f i l. Bəli, bəli!

N ə s i r o v. Yenə hamınızdan yaxşı işləyən Maraldır. Siz "bəli" deyirsiniz, ancaq işinizdə sürət yoxdur. Gəlin bəri.

Çıxırlar. İ n c i və G ü l ə r gəlirlər.

İ n c i. Bəs burada heç kəs yoxdur ki!

G ü l ə r. Biz onları haradan tapacağıq?

İ n c i. Çıxaq gedək, ay qız, mən utanıram.

G ü l ə r. Niyə utanırsan? Mən heç utanıb eləmirəm. Sadığa rast gəlsəm, bilmirəm neyləyəcəyəm. Ondan qulağıma bəzi sözlər gəlir. Deyirlər, gecələr skamyaların üstündə yatır.

İ n c i. İndi ki, ayrılmısan, nəyinə borcdur? Neyləyir eləsin.

G ü l ə r. Yox, axı... Necə olsa, adam yanır.

İ n c i. Nə deyirsən de, amma qız ki, bir dəfə ərə getdi, gərək ayrılmaya. Ailədə min söz olar, düz deyirəm, ya yox?

G ü l ə r. Eh, İnci!.. Bilirsən, mən lap uşaqlıqdan bu tərbiyə işlərinə həvəsliyəm. Mənim istədiyim nə idi, sadə bir şey. Övlad. Bir qız, ya da oğlan.

İ n c i. Oğlan yaxşıdır.

Gülər. Mən qızı çox sevirəm. Mən onu çiçək kimi bəzəyərdim. Amma o daşürəkli məni bu zövqdən mohrum eləmək istəyirdi. Ayrıldım. Yaxşı eloyib ayrıldım. Nə deyirsən?

İnci. Ayrılandan sonra mən sənə nə deyə bilərəm? Əvvəldən soruşsaydın, onda deyərdim ki, ayrılma.

Gülər. Bəs, yaxşı, o məsləhəti özünə niyə eləmədin?

İnci. Arvadların sonrakı ağlı. Nə deyim? Daldan atılan daş topuğa dəyər. O mənə həmişə deyərdi ki, İnci can, qoy bu istirahət evini qurtaraq, sonra gör nə qədər gəzəcəyik. Amma mən: "Yox, elə bu saat, vəssalam". İndi öz-özümə fikirləşirəm ki, nə olmuşdu? Hara tələsirdin? Eh, Gülər, Gülər, üreyim elə kövrolib ki, ayıb olmasaydı, başımı sənin çiyninə qoyub uşaq kimi ağlayardım.

Gülər. Ay qız, ağlama, nə üçün ağlayırsan?

İnci (*gözünü silir*). Ağlamıram ki, deyirəm, ağlayardım.

Uzaqdan Usta Segahın "Gülər, a Gülər!" deyə səsi eşidilir.

Gülər. Aha, yenə çağırdı. Ay qız, qulaq as!

İnci. Nə olub, kimi çağırırlar?

Gülər. Bilmirəm, kim isə məndən əl çəkmir. Nə vaxt bura gəlirəmsə: "Gülər, Gülər!" deyib çağırır.

Gülər. Eşitdin?

Yenə Usta Segah "Gülər, Gülər" – deyə səsi eşidilir.

İnci. Qəribə işdir.

Gülər. Mən gedib onu tapacağam. Səs bu tərəfdən gəlir. Sən burada otur, bu saat gəlirəm.

İnci. Ay qız, orada sən kimi tapacaqsan? Getmə!

Gülər (*səhnə arxasına*). Dayan, dayan, mən sənə Güləri göstərərəm.

Gülər çıxır. İnci dərin fikrə gedir. Sadıq gəlib keçmək istədikdə, birdən-birə onu görüb dayanır, yaxınlaşır.

Sadıq (*çox utancaq*). İnci bacı! Siz çoxdan gəlmisiniz?

İnci (*birdən ayılır*). Hə, yox, elə indicə gəlmişəm.

Sadıq. Siz bu gün çox qəmlisiniz.

İnci. Qəm olmasa, adam sevincin qədrini bilməz.

Sadıq. Düzdür. Bizim müəllimimiz həmişə deyərdi ki, soyuq olmasa, adam istini hiss etməz. Sizinçün isti deyil ki?

İnci. Nə üçün soruşursunuz?

Sadıq. Heç, söhbət üçün dedim. Mən, ümumiyyətlə, söhbət eləməyi çox sevirəm. Amma mövzu tapmıram, həmişə söhbət eləyəndə ya istidən danışıram, ya da soyuqdan.

İnci. Deməli, elə onunçün Gülərlə söhbətiniz düz gəlməyib? Ona isti olanda, siz soyuqdan danışmısınız, soyuq olanda, istidən. Eləmi?

Sadıq. Məsələ ondadır ki, heç söhbət eləyə bilməmişəm. İstidən başlamışam, o insafsız elə başa düşüb ki, mən darıxdığıma işarə eləyirəm, inciyib. Soyuqdan başlamışam, yenə də elə başa düşüb ki, ona qarşı çox soyuğam, inciyib. Qərəz, siz ki, bilirsiniz, İnci bacı, məndə, heç bir belə də təqsir yoxdur.

İnci. Bəs təqsir kimdədir?

Sadıq. Doğrusu... utanıram da deməyə... təqsir o balacadadır. Ah, o əlimə düşsə, qulağını elə çəkərəm ki...

İnci. Bu olmadı. Balaca uşağı döyməzlər.

Sadıq. Məsəl üçün deyirəm. (*Susur. Birdən yadına düşür*) İnci bacı, sabah bizim istirahət evinin açılışıdır, sizi dəvət eləyirəm. Bir dəqiqə gözləyin, Bərbərzadədən bileti alıb gətirim.

İnci. Çox sağ olun, vaxtım olsa, özüm gələrəm, zəhmət çəkməyin, bilet olmasa da mümkündür.

Sadıq. Xeyr, xeyr, necə yəni mümkündür. Bu dəqiqə gəlirəm.

Sadıq çıxır. Bu biri tərəfdən Mürşüd səhnəyə gəlir. İnci ilə hər ikisi bir-birlərindən üz döndərib dayanırlar.

Mürşüd. Bağışlayın, vətəndaş İnci, mənim sizinlə bir neçə kəlmə sözüm var. Burada danışaq, yoxsa məhkəmə qarşısında.

İnci. Məhkəmə qarşısında danışsaq yaxşıdır.

Mürşüd. Çox gözəl. Məhkəmədə danışarıq, ancaq uduzacaqsınız.

İnci. O sizin işiniz deyil. Məhkəməyə ona görə verirsiniz ki, evsizsiniz, ev davası çəkirsiniz? Alın bu da açar. (*Açarı stolun üstünə qoyur*)

Mürşüd. Mənə otaq lazım deyil. Ancaq kitablarımı göndərin.

İnci. Özünüz gəlib apara bilərsiniz. Açar oradadır, götürün.

Mürşüd. Xeyr, mən açar istəmirəm. Evdə olan vaxtınızı deyin, yoldaşımı göndərim, gəlib götürsün.

İnci. Evdə çox az oluram. Nə çoxdur teatr, park, kino.

Mürşüd (*təəccüblə*). Tək gedirsiniz?

İnci. O sizə borc deyil. Başqasının həyatı ilə maraqlanmağa dəyməz. (*Açarı götürür*) Yerinizi deyin, kitabları göndərim.

M ü r ş ü d. Mənim yerim bəlli deyil, gündə bir evdə qalıram.

İ n c i (*təəccüblə*). Necə yəni gündə bir evdə?

M ü r ş ü d. O sizə borc deyil. Başqasının həyatı ilə maraqlanmağa dəyməz.

İ n c i. Dəyməz, dəyməsin, çox lazımdır!

M ü r ş ü d. Mən sabah yoldaşımı göndərərəm, gəlib kitabları aparar.

İ n c i. Siz də bu saat mənim şəkillərimi qaytarın.

M ü r ş ü d. Bu saat?

İ n c i. Bəli, bu saat.

M ü r ş ü d. Bəlkə icazə verəsiniz bircə gün məndə qalsın.

İ n c i. Bircə dəqiqə də olmaz. Sizdə qız şəkli çoxdur.

M ü r ş ü d. Çox gözəl. Şəkilləri bu saat gətirib gələrəm. Ancaq eybi yoxdur, vaxt olar, peşman olarsınız.

İ n c i. O mənim şəxsi işimdir.

Hirslə qarşı-qarşıya dayanırlar.

M ü r ş ü d. Hə?

İ n c i. Hə...

M ü r ş ü d. Yaxşı!

Mürşüd çıxır. İnci əsəbi halda getmək istədikdə, yenə Sadıqla rastlaşır.

S a d ı q. Buyurun, birinci sıra, birinci, ikinci yer. Ehtiyatdan ikisini gətirdim. Bəlkə bəzi-bəzi adamlar da gəlmək istədi.

İ n c i (*gözünü silir*). Çox sağ olun.

S a d ı q. Siz ağlayırsınız, yoxsa?..

İ n c i. Hə, yox. Ağlamıram. Hanı? Niyə ağlayıram ki? (*Bileti alır*) Çox sağ olun.

S a d ı q. Deməli ki, sabah axşam saat yeddidə başlanacaq. Böyük hazırlıq görmüşük.

Qonaqlarımız çox olacaq. Oxumaq, rəqs...

Onlar çıxırlar. G ü l ə r o biri tərəfdən səhnəyə gəlir.

G ü l ə r. Ay İnci, aləmi axtardım... (*Usta Segah yenə "Gülər, Gülər!" deyə çağırır*) Dayan, mən sənə Güləri göstərərəm. Aha, odur bax, oradadır.

Gülər tələsik çıxmaq istəyəndə, M ü r ş ü d gəlir, üzünü yana çevirərək əlindəki şəkilləri Gülərə uzadır.

M ü r ş ü d. Al, bu da sənin şəkillərin.

G ü l ə r (*təəccüblə*). Maraqlı şəkillərdir?

M ü r ş ü d (*birdən Güləri görüb, geri çəkilir*). Bıy, sizsiniz?

G ü l ə r. Şəkilləri niyə gizlədirsiniz?

M ü r ş ü d. Bağışlayın, mən sizi çaşbaş salmışam. Xoş gördük, Gülər bacı! Sadıq indicə burralarda idi...

G ü l ə r (*hirsli halda*). Mənə heç bir Sadıq-madıq lazım deyil!

M ü r ş ü d. Olmur olmasın, mənim sözüm yoxdur ki...

G ü l ə r. Deyəsən, işinizi qurtarmışsınız.

M ü r ş ü d. Bəli, sabah açılışdır, icazə verin. Gülər bacı, sizi sabah açılışa dəvət eləyim, buyurun bu da bilet, birinci sıra, üçüncü, dördüncü yer, ehtiyatdan iki bilet gətirmişəm, bəlkə bəzi-bəzi adamlar da sizinlə bərabər gəlməli oldu.

G ü l ə r. Nə bilim, bəlkə gəldilər, ancaq hələ acıqları soyumayıb...

M ü r ş ü d. Soyumaz da... Təqsirlərin hamısı məndədir. Mən baş müqəssirəm... Qərəz... Gülər bacı, dərd vurub ürəyimə, hirs də başıma.

Uzaqdan Nəsirovun səsi eşidilir.

M ü r ş ü d. Deyəsən, yoldaş Nəsirov gəlir.

Gülər tez bir tərəfə çəkilir. N ə s i r o v ilə M i r z ə Q ə r ə n f i l içəri girirlər.

N ə s i r o v. Mürşüd, burada neyləyirsən?

M ü r ş ü d. Heç, elə-belə, nəfəs alırdım.

N ə s i r o v. Nəfəsi sonra da ala bilərsən. Gəl bura görüm.

M ü r ş ü d. Yoldaş Nəsirov, bircə dəqiqə.

N ə s i r o v. Bir saniyə də ola bilməz. Gəl görək, Sadığı da tapıb məsləhətləşək. Gedək, binanı bir də gözdən keçirdək.

Üçü də gedir. Gülər də getmək istədikdə, qapının ağzında S a d ı q ilə qarşılaşır.

S a d ı q. Deyəsən, məni qara basır.

G ü l ə r. Sizsiniz? Yoxsa mənim gözümə belə görünür?

S a d ı q. Əgər siz Gülərsinizsə, bəs burada neyləyirsiniz?

G ü l ə r. Bəzi adamların danışığından belə çıxır ki, adım Gülər olduğu üçün mənim burada işim olmazmış.

S a d ı q. Bəzi adamlar yenə söz güləşdirmək xasiyyətində qalıblar.

G ü l ə r. Bəzi adamlar yalvarmasınlar. Uşaq deyilik ki, küsüb-barışaq. Yalvarmaq lazım deyil.

S a d ı q. Yenə uşağı yadıma saldı. Nə olar, adam səhv eləyər. Onda istəmirdim, indi, deyəsən, məhəbbəti gəlib ürəyimə.

G ü l ə r. Bəzi adamların ürəklərinin qapısı xarab olub. Məhəbbət gəlir-gedir, gedir-gəlir.

S a d ı q. Bəlkə biz ürəyimizin qapısını təmir etdirmişik.

B ə r b ə r z a d ə içəri girir.

B ə r b ə r z a d ə. Ay yoldaş Sadıq, sən buradasan? Sizi çağırmaqdan mənim boğazım yırtılıb. Gedək, Nəsirov axtarır.

S a d ı q. Bərbərzadə, bir dəqiqə. Sən get, mən də gəlirəm.

B ə r b ə r z a d ə. Yox, əzizim. (*Qolundan yapışır*) Səni Nəsirova təhvil verim, sonra hara gedirsən, get.

S a d ı q (*Gülərə*). Bəzi adamlar səhvlərini boyunlarına alsalar yaxşıdır. Yoxsa pis olar.

B ə r b ə r z a d ə. Adə, səhv eləmirəm ey...

Sadıqla Bərbərzadə çıxırlar. Gülər peşman halda getmək istədikdə, onu axtaran İ n c i ilə rastlaşır.

İ n c i. Səni axtara-axtara biabır oldum. Haradasan, ay qız?

G ü l ə r. Bayaqdan buradayam.

İ n c i. Di gəl gedək. Görüşə bildinmi?

G ü l ə r. Görüşdüm.

İ n c i. Mən də görüşdüm.

G ü l ə r. Harda?

İ n c i. Burda. Bəs sən harda?

G ü l ə r. Mən də burda.

İ n c i. Qəribə işdir. Ah, gəlib görəydin, necə yalvarırdı. Bağışla, bilməmişəm.

G ü l ə r. Sən mənimkini görəydin. Bilmirsən nə qədər ağladı. Mən heç üzünə də baxmadım. Dedim neyləyirsən elə, keçib.

Səhnə arxasından səs-küy eşidilir.

İ n c i. Səs gəlir, ay Gülər, bəlkə gələn mənimkidir. Tez gedək, bir də rast gəlməyək.

G ü l ə r. Mənimkinin səsinə oxşayır. Dedi ki, səhərə kimi ağlaya-ağlaya buralarda gəzəcəyəm.

İ n c i. Burada bir yer olsa, adam gizlənib baxar, görək neyləyəcəklər?

G ü l ə r. Mən də maraqlanıram. (*Ətrafa baxır. Bərbərzadənin anbarının açıq olduğunu görür*) Ay qız, gəl bu otağa girib pəncərədən baxaq.

İ n c i. İcazəsiz otağa girmək olar?

G ü l ə r. Ay qız, nə icazə? Görmürsən hələ heç rəng də çəkməyiblər. Bizi kim görəcək?

Anbara girirlər. M a r a l, H ə l i m ə və ayrı bir nəfər içəri girirlər.

M a r a l (*yanındakı adamlara*). Gedin, bu saat gəlirəm sizə tapşırıq verməyə. (*Onlar çıxırlar*) Ay qız, Həlimo, surqucu bura ver. (*Eşitdirmək üçün ucadan deyir*) Mən bu saat zavxozun qapısını peçatlayım, o da görsün.

H ə l i m ə. Bıy, ay Maral bacı. Bərbərzadənin anbarını peçatlamağa əlin necə gəlir?

M a r a l. Bərbərzadə deyil, Allah da gəlsə, qorxan deyiləm. Spiçka çək. (*Danışa-danışa qapıya peçat vurur*)

H ə l i m ə. Bəs, ay Maral bacı, ortada məsələlər var idi, xeyir iş olacaqdı, nə oldu?

M a r a l. Boş söhbətlərdi. Bərbərzadə nədir ki, mənim hələ onunla xeyir işim də olsun?

H ə l i m ə. Maral bacı, axı sən mənim kurort məsələmi qurtarmadın. Krıma yoxdursa, Borjoma olsun... Ərizəni aynanın altına qoymuşam.

M a r a l. Kurort vaxtı deyil, Həlimə. Sonra danışarıq.

Maral qapını peçatlayır. B ə r b ə r z a d ə səhnəyə çıxır, onları görüb təəccüblə dayanır.

B ə r b ə r z a d ə. Dayan, ay yoldaş, sənin nə ixtiyarın var, mənim qapıma peçat vurursan?

M a r a l. Sənin nəinki qapına, özünə də peçat vurmağa mənim ixtiyarım var.

B ə r b ə r z a d ə. Mən sənin vurduğun peçatı, bax, bu cür qırıb ataram. (*Peçatı qırır*)

M a r a l. Ay qız, Həlimə, surqucu bura ver! (*Qapını yenidən peçatlamağa başlayır*)

B ə r b ə r z a d ə. Heç eybi yoxdur. Nəsirov yoldaş gəlincəyə qədər burada dayanacağam, sən peçatlayacaqsan, mən də qıracağam.

Onlar bir-birilə mübahisə edirlər. G ü l ə r l ə İ n c i anbarın pəncərəsindən başlarını çıxarıb baxırlar.

Gülər (*İnciyə*). Ay qız, biz burada qaldıq. Eviniz yıxılsın.

Bərbərzadə (*elə başa düşür ki, bu sözləri Maral deyir*). Öz evin yıxılsın!

Maral. Söyüş söymə, dilini dinc qoy.

Bərbərzadə. Bəs sən niyə söyürsən?

Maral. Mən sənə heç bir söz deməmişəm.

İnci (*əyilib baxmaq istəyir. Gülərə*). Doğrudan peçatladı, bu dəli olub, nədir?

Bərbərzadə. Dəli sənsən. Ağıllı danış, yoxsa pis cavab verərəm. (*Gəlib peçatı qırır*)

Maral. Nə ixtiyarın var, mənə pis cavab verəsən? (*Təzədən peçatlamağa başlayır*) Mən də sənin üçün o mühəndislər deyiləm ki, o Mürşüddür, Sadıqdır, kimdir... Arvadlarını boşayan kimi çəkdin öz otağına. Yəqin indi dünyanı götürmüsünüz başınıza...

Bərbərzadə. Onun sənə dəxli yoxdur.

Maral. Dəxli çoxdur. Ailə pozğunluğu üstündə gör sənə nə eləyirlər.

Bərbərzadə. Mənim hələ ailəm yoxdur ki, pozğunluğu da olsun. Deməli, yenə peçatladın?

Maral. Bəli, indi də gedirəm təftiş komissionunu gətirməyə.

Bərbərzadə. Eybi yoxdur. Mən də gedirəm yoldaş Nəsirovun yanına. Sənin nə ixtiyarın var, ondan icazəsiz məni təftiş eləyəsən?

Hərəsi bir tərəfdən çıxırlar. Gülər və İnci otağın qapısını tərpədirlər, peçatlı olduğunu görüb, yenə pəncərəyə yaxınlaşırlar.

İnci. Deyəsən, getdilər. Bir az da burada qalsaq, ürəyim partlayacaq. Yox, Gülər, daha mən bu işlərə dözə bilmirəm. Arvadın bizim kişilər barədə dediklərini eşitdin? Yaxşı, Mürşüd, deməli belə?!

Gülər. Mən bu gün yığışıb gedirəm ata-anamın yanına.

İnci. Mən də gedirəm. Bileti iki dənə al.

Gülər. İkimiz də gedək. Sözündən dönməzsən ki?

İnci. Sözümdən niyə dönürəm? Bəs, biz haradan çıxaq?

Gülər. Pəncərədən düşə bilmərik. Gəl, qapını qıraq.

Qapını tərpədirlər. Maral və bir neçə adam bir tərəfdən, Bərbərzadə ilə Nəsirov o biri tərəfdən içəri girirlər.

Bərbərzadə. Budur, yoldaş Nəsirov, gündüzün günortasında vurduğu peçata bax.

Maral. Hə, budur, yoldaşlar, bu saat açın, təftiş eləyin.

Nəsirov. Açın o qapını görək, siz burada nə eləmək istəyirsiniz.

Hamı qapıya yaxınlaşanda içəridən qapı dartılır, peçat qırılır, qapı açılır. Gülər ilə İnci çıxırlar, bunlarla rastlaşdıqda qorxub hərəsi bir tərəfə qaçır.

Maral. Aha, anbar qıznan doludur ki?!

Nəsirov. Bu nədir, Bərbərzadə?

Sadıq ilə Mürşüd səhnəyə çıxdıqda, qaçan qızları görürlər.

Bərbərzadə (*təəccübdən dili tutulur*). Mən... Mənim xəbərim yoxdur...

Pərdə

DÖRDÜNCÜ PƏRDƏ

BEŞİNCİ ŞƏKİL

İstirahət evi hazırdır. Hər yan bəzənib, ağaclardan rəngli fənərlər asılıb. Pərdə açıldıqda uzaqdan orkestr səsi gəlir. Cavanlar oynaya-oynaya səhnədən keçirlər. Sadıqla Mürşüd oynayaraq gəlirlər. Musiqi kəsilir.

Sadıq. Nə gözəl gecədir!

Mürşüd (*fərəhlə istirahət evinə baxır*). Böyük sürətlə başa çatdırdığımız bu bina, bu şənlik günü daha da gözəl görünür.

Sadıq. Nəsirov olmasaydı, biz bir ay sonra da işimizi qurtara bilməzdik. Od kimi işləyir. Yaxşı adamdır, yaxşı da işçidir.

Mürşüd. Hamısından yaxşısı odur ki, uzunçuluqla arası yoxdur. Kim nə deyirsə-desin, iş adamıdır, söz adamı deyil.

Sadıq. Bizim də işimizə yaxşı qiymət qoydular. Şəhər sovetinin nümayəndəsi gördün nə cür danışırdı?

Mürşüd. Yaxşı danışdı. Amma Nəsirov bizdən danışanda, az qala, işləri korlamışdı.

Sadıq. Demə daha, elə hey söhbəti ora gətirirdi ki, mühəndislər arvadlarından küsüblər... Arvaddan küsməyin bura nə dəxli var? Sən mənim işimdən danış.

Mürşüd. İşdən danışmaqdan yorulmuşam, Sadıq. Bu arvadlar da gəlib çıxmadılar.

Sadıq. Sən bilən gələrlər?

Müşüd. Eh, nə bilim, gedək bir az gəzək.

Sadıq. Gəzməyə həvəs var? Ah... A Gülər, a Gülər! Belə bir gecədə arvadlarımızla yan-yana gəzmək nə yaxşı olardı! Heyf ki, işlər korlanıb! Gəl, bir az hərlənək, dərdimiz azalsın.

Müşüd. Gəl.

Oynaya-oynaya çıxırlar. Maral və Həlimə içəri girirlər. İstirahət evinin qapısına lent bağlayırlar. Bərbərzadə balkona çıxır, məhəccərə şüar vurur, sonra birdən Maralı görür.

Bərbərzadə. Bəli də, yerli komitənin də işini gərək zavxoz görə.

Maral. Ay qız, Həlimə, o çəkici bura ver. Səsi qulağıma gələndə, elə bil məni ilan vurur.

Həlimə. Sən də işləməyə vaxt tapmısan, ay Maral bacı? Rəqs əlimdən çıxdı. Bəs gündüz başın nəyə qarışıq idi?

Maral. Başımız qarışmışdı anbardan qız çıxartmağa.

Bərbərzadə. Camaat adam dolaşdırmaq üçün bəhanə axtarır. Qəribə işdir.

Maral. Həlimə, fikrin məndə olsun, onun-bunun boş sözlərinə qulaq asma.

Həlimə. Ay Maral bacı, nə putyovka verdin, nə də oynamağa qoyursan. (*Yavaşca gedir*)

Maral. Ay qız, çəkici bura ver, demirəm? Həlimə, bəs bu qız hanı? Məni bu cür yerlərdə tək-tənha qoyub hara getdi?

Bərbərzadə (*səhnəyə düşür, ətrafa göz gəzdirir, Maral eşitsin deyə ucadan deyir*). Nə şairanə gecədir!

Maral. Maşallah, şeir yazmaqda mahirsən. (*Hirslə*) Bu nazik qəlbimin soltanı sənsən, sevgi quyusunun kankanı sənsən.

Bərbərzadə. Pis sözlərdir?

Maral. Hamısı rəngdir. Kankan, ayaqlar altında quyu qazan özünsən. Öz adını özgəyə niyə qoymusan? Təvəqqe eləyirəm, düşmən öz düşmənçiliyini eləsin.

Bərbərzadə. Maral, bağışla məni, bu canım ölsün ki, mən sənə o sözləri lap ürəkdən yazmışam. (*Öz-özünə*) Bilirdim ki, bu kankan mənə baha oturacaq.

Maral. Mənimlə danışma, get şairliyini eləməyə, katibə xanım səni gözləyir.

Bərbərzadə. Maral, yalvarıram, sənə. Bir bax gör, bu iki günün içində iki kilo arıqlamışam. Bir insafın olsun axı.

Maral. Mənim ürəyim sənin lə ölənə kimi barışmaz. Mən səni yaxşı tanıyıram.

Bərbərzadə. Mən bu gündən sonra arvad görəndə gözlərimi də yumacağam, qulaqlarımı da.

Maral. Baxarıq.

Maral çıxır. Sənubər içəri girir. Bərbərzadəni görcək sevincək onun yanına gəlir.

Sənubər. Bərbərzadə, salam sənə.

Bərbərzadə. Yox-yox, istəmirəm. Get, get, amandır, gözümə görünmə.

Sənubər. Nə üçün axı? Danışmaq olmaz?

Bərbərzadə. Olmaz. Zəhmət çək o tərəflərə get. Buralara hərlənmə.

Sənubər. Bərbərzadə, qadınlarla bu cür rəftar eləmək olmaz.

Bərbərzadə. Anam, bacım, təvəqqe eləyirəm ki, daha mənim gözümə görünməyəsən. Ay balam, mənimlə müqavilən var?

Sənubər. Bunlar hamısı təhqirdir.

Bərbərzadə. Hər nədirsə, zəhmət çək, qadan alım. Zəhmət çək, indicə o gələr qan düşər. Sən məni tanımırsan, mən də səni. Xudahafiz.

Sənubər. Nə qədər kobudsan.

Bərbərzadə. Hər nəyəmsə, olanım budur. Get, indicə o qayıdacaq, get yolunla, qurban olum.

Maral içəri girib bunları görür. Şüarlar əlindən düşür.

Maral. Sən yenə kimin yolunda qurban olursan?

Bərbərzadə. Maral, ona de ki, getsin, bax, nə üzünü görürəm, nə də səsini eşidirəm.

Maral. Bəs indicə deyirdin ki, qurban olum sənə? Utanmaz! Ay aman, tər məni basdı. (*Çıxır*)

Sənubər (*yerində fırlanır*). Heç mən sənin üzünə də baxmaq istəmirəm. Buna bax, a... (*Çıxır*)

Bərbərzadə. Yenə aləm qarışdı bir-birinə. Ay Maral, ay qız!.. Gedim könlünü alım. Yoxsa məhəbbətim ömürlük ləkəli qalacaq.

Bərbərzadə çıxır. Usta Segah və ikinci Gülər içəri gəlirlər.

Usta Segah. Hə, qızım, gəl görək, üzünü köçürtmüsən?

İkinci Gülər. Köçürtmüşəm, usta.

Usta Segah. Əcəb eləmisən. Lap mən deyən kimi yazmısan?

İkinci Gülər. Bəli! Amma mən bu sirri başa düşmürəm. Siz nə üçün özgənin adından özgəyə kağız yazdırırsınız.

Usta Segah. Mənası dərindir, qızım. Bizim mühəndisləri tanıyırsan ki? Qızıl kimi cavanlardır, səhv eləyib, arvadlarından küsüblər, indi peşman olublarsa da, barışa bilmirlər. Bu yazdığımız məktublar onların barışmağı üçün bəhanə olacaq. Bildin? Bu dörd cavanın ürəyini birləşdirmək, bir bina tikmək qədər həvəsli işdir. Bəs indi kağızları sahiblərinə necə çatdıraq? Bu, guya ki, İncidən Mürşüdə, bu da Gülərdən Sadığa. Bunları Mürşüdlə Sadığa mən özüm verərəm. Bəs İnci ilə Gülərə kim versin? Sən onları tanıyırsanmı, qızım?

Gülər. Tanımıram, usta.

Usta Segah. Bəs neyləyək? (*Mirzə Qərənfil gəlir*) Hə, budur, Mirzə Qərənfil kömək edər. Mirzə Qərənfil, dayan, sözüm var.

Mirzə Qərənfil. Usta Segah, xoş gördük! Məni bağışla. Bir az tələsirəm. Sənin xoş kəlamlarına qulaq asa bilməyəcəyəm.

Usta Segah. Biləcəksən. İnsanın ixtiyarı öz əlindədir. Burada oturub yarım saat söhbət eləməliyik. Söz yığılıb sinəmdə qalıb.

Mirzə Qərənfil. Qoy hələlik orada qalsın, tərpətmə.

Usta Segah. Xeyr, xeyr, mühüm məsələdir. (*Oxuyur*)

Söyləsin usta Segah,
Qərənfil də olsun agah.

Mirzə Qərənfil. Sənin ləqəbini tərs qoyublar, usta. Mən havaxt sənə rast gəlirəmsə, "Çahargah" oxuyursan, gərək adını dəyişib, Usta Çahargah qoyaydılar.

Usta Segah. Xeyr, səhvin var. Mən düz otuz il "Segah" oxumuşam. "Çahargah"a hələ təzə keçmişəm:

Qocalıq basıb məni, fəryadı-aha keçmişəm,
Cəmisi beş il olar ki, çarigaha keçmişəm.

Mirzə Qərənfil. Usta təvəqqe eləyirəm söz deyəndə oxuya-oxuya demə. Ay canım, opera-zad deyil ki!

Usta Segah. Yaxşı, qulaq as, ərzim var.

Mirzə Qərənfil. Ərzinə hörmətim var.

Usta Segah. Hörmətə məhəbbətim var.

Mirzə Qərənfil. Usta, sən bu cür uzun eləsən, mənim Nəsirov yoldaşdan töhmətim var.

Usta Segah. Gödəltdim. Qulaq as. Bax, bu iki məktub Mürşüdlə Sadığın həyat yoldaşlarına çatacaq. Bunların gərək zəhmətini çəkəsən.

Mirzə Qərənfil. Usta, bu təntənəli gündə mən məktub paylaya bilmərəm.

Usta Segah. İcazə ver, burada iki bənd oxuyum.

Mirzə Qərənfil. Yox-yox usta, paylaya bilmərəm. Tələsirəm. Mən, özün bilirsən ki, vəzifə sahibiyəm.

Usta Segah. Bu barədə dörd bənddən ibarət söz var. İcazə ver, "Çahargah" üstə deyim.

Oxumaq istəyir, Mirzə Qərənfil qoymur.

Mirzə Qərənfil. Bircə dayan, məktubları sahiblərinə çatdırmağa razı olaram, sənin xətrinə. Amma oxumağına qulaq asa bilməyəcəyəm.

Usta Segah. Eybi yoxdur, vaxt olar, özün yalvararsan, deməli, arxayın olum?

Mirzə Qərənfil. Arxayın ol, usta, arxayın ol. Bu saat tapşırıqlarına əməl olunacaq.

Usta Segah. Elə isə, xudahafiz. (*İkinci Gülərə*) Gedək, qızım.

Çıxırlar. Sənubər içəri girir.

Sənubər. Mirzə Qərənfil...

Mirzə Qərənfil. Mirzə Qərənfil sənə fəda olsun dibçəyilə.

Sənubər. İşlər pozuldu axı!

Mirzə Qərənfil. Pozuldu?

Sənubər. Zuldu.

Mirzə Qərənfil. Əşi, at da bu ixtisarı. Aydın danış görüm, necə pozuldu?

Sənubər. Açıq-aydın deyirəm ki, pozuldu.

Mirzə Qərənfil. Sən məndə can qoymadın. Bir az ətraflı danışsan olmaz?

Sənubər. İşlər pozuldu. Yəni ki, Bərbərzadə ilə Maral barışdılar. Məni də Bərbərzadə təhqir elədi.

M i r z ə Q ə r ə n f i l. Necə, necə? Deməli, axırıncı otaq ümidi də o dünyaya təşrif apardı?

S ə n u b ə r. Mirzə Qərənfil, sən bunun əvəzində Bərbərzadədən intiqam almayacaqsan?

M i r z ə Q ə r ə n f i l. Bacım, daha mənim səninlə haqq-hesabım qalmadı. Daha biz balansı bağlayıb, yekun vura bilərik.

S ə n u b ə r. Başa düşmürəm, Mirzə Qərənfil.

M i r z ə Q ə r ə n f i l. Yəni onu demək istəyirəm ki, daha sən məndən ötrü avara olma. "Səndən mənə yar olmaz" havasını eşitmisən?

S ə n u b ə r. Mişəm.

M i r z ə Q ə r ə n f i l. Mişsənsə, daha yaxşı. O havanı oxuya-oxuya get.

S ə n u b ə r. Mirzə Qərənfil, bu nə sözdür? Bəs mənə verdiyin vəd?

M i r z ə Q ə r ə n f i l. Səni and verirəm əzizlərinin canına, qoy yaşayım.

S ə n u b ə r. Daha sən məni quşa oxşatmırsan?

M i r z ə Q ə r ə n f i l. Yox, daha quş qurtarıb. Nə olar, bir zəhmət çək, parkın o tərəflərində gəz. Mənim işim var. Axı mən dərd sahibiyəm. (*Çıxır*)

S ə n u b ə r (*öz-özünə*). Ah, belə? Onda mən də gedərəm Bərbərzadə ilə Marala hamısını xəbər verərəm.

Sənubər çıxır. İ n c i və G ü l ə r içəri girirlər, təzə tikilmiş evə diqqətlə tamaşa edirlər.

G ü l ə r. Bina nə gözəl çıxıb.

İ n c i. Biz Mürşüdlə bu binanın üstündə pozuluşduq.

G ü l ə r. Siz yaxşı ki, bina tikmək üstündə ayrılmısınız. Amma mənimki uşağın qorxusundan heç hin də tikmək istəmirdi.

İ n c i. İndi mən onu haradan tapım ki, açarı verim?

G ü l ə r. Deməli, üç saatdan sonra qatar hərəkət edir. Üç saatdan sonra daha buranı görməyəcəyik.

İ n c i. Elə darıxıram ki. Həmişə mən bir yerə yola düşəndə sevinərdim. Bu gün, nədənsə, ürəyim darıxır.

G ü l ə r (*gülə-gülə*). Qoy bir fala baxım görək, bizim getməyimiz uğurlu olacaq, ya yox?

İ n c i. Xoşbəxtsən ki, kefin kökdür. Mən bir az da fikirləşsəm, gözlərimi saxlaya bilməyəcəyəm.

G ü l ə r. Fala bax, fala bax, kefin açılsın.

İ n c i. Necə baxım?

G ü l ə r. Budur bax. Gözünü yum, barmaqlarını bir-birinə tuşla.

Qızlar gözlərini yumurlar. B ə r b ə r z a d ə ilə M a r a l içəri girirlər.

B ə r b ə r z a d ə. Maral, səni inandırıram ki...

M a r a l (*Gülərlə İncini göstərir*). Dayan-dayan, bunlar sənin anbarından çıxan qızlar deyil?

G ü l ə r. Ay qız, biabır olduq.

Qaçırlar. Maral küsüb getmək istəyir.

B ə r b ə r z a d ə (*diz çökür*). Getmə, dayan, özün bil, inanırsan inan, inanmırsan yox. Bu mənim başım, bu da sənin əllərin.

M a r a l (*naz ilə*). Get yolunda qurban olduğunu tap.

B ə r b ə r z a d ə. Maral, axı mən sənə əhvalatı başdan danışdım.

M a r a l. Mən səninlə bir addım da atmaram.

B ə r b ə r z a d ə. Maral, gəl məni incitmə, onsuz da ürəyimin yağını əritmisən.

S ə n u b ə r içəri girir.

S ə n u b ə r. Bərbərzadə, bir dəqiqə və gizlin.

B ə r b ə r z a d ə (*özünü itirir*). Ay qız, sən yenə gəldin? Yenə də qan düşəcək, çıx get burdan.

S ə n u b ə r. Bərbərzadə, mən sənə mühüm bir xəbər verəcəyəm.

B ə r b ə r z a d ə. İstəmirəm, atam, istəmirəm.

M a r a l. Ay aman, tər məni basdı.

B ə r b ə r z a d ə. Maral, sənə söz verirəm ki...

M a r a l. Mənimlə bir kəlmə də danışma.

B ə r b ə r z a d ə (*Sənubərə*). Bacım, niyə məndən əl çəkmirsən? Niyə məni bədbəxt eləyirsən?

S ə n u b ə r. Buna bax, a, mən səndən ötrü ölmürəm ki! Sözüm var, ona görə gəlmişəm.

B ə r b ə r z a d ə. Qoysana ailə məsələləri ilə məşğul olum. Pah atonnan sənin!

M a r a l (*Sənubərin üstünə hücum çəkir*). Ay qız, kişidən əl çəksənə. Nə yapışmısan qopmursan? Ay aman, öldürəm.

S ə n u b ə r. Mən sizdən heç bir şey istəmirəm, mühüm bir xəbər verməyə gəlmişəm. Mənə tapşırmışdılar, elə eləyim ki, siz evlənə bilməyəsiniz.

B ə r b ə r z a d ə. Necə?

M a r a l. Nə dedin?

S ə n u b ə r. Sizin aranıza girmişdilər ki, evlənməyəsiniz.

B ə r b ə r z a d ə. Açıq danış, görüm kim qoymurdu?

S ə n u b ə r. Mirzə Qərənfil.

M a r a l. Mirzə Qərənfil?

S ə n u b ə r. Fil...

B ə r b ə r z a d ə. Onun harası fildir? O heç milçək də deyil.

S ə n u b ə r. Bax, bizim otağımız yox idi. Sənin də dörd otağın var. Qərənfil istəyirdi ki, bir hiylə ilə otağın ikisini keçirsin əlinə, bildin? Onunçün də sizi vuruşdururdu.

B ə r b ə r z a d ə. Pah atonnan. Deməli, Maral, onun sənin tərəfindən mənə dediyi sözlər yalandır?

M a r a l. Bəs, deməli, o şeir də ürəkdən yazılıbmış? Necə idi?

B ə r b ə r z a d ə. Dünyanın ən nazlı cananı sənsən.

M a r a l. Of, yenə birtəhər oluram. (*Sənubərə*) Yaxşı, bəs sən niyə onun sözünə baxırdın?

S ə n u b ə r. Çünki mənim də otağım yoxdur.

M a r a l (*Bərbərzadəyə*). Bəs sonrası necədir?

B ə r b ə r z a d ə. Sənə qurban olsun bu Bərbərzadə...

M a r a l. Ay aman, nə yaxşı sözlərdir! (*Sənubərə*) Deməli, sən onu sevmirsən?

S ə n u b ə r. Mirəm.

B ə r b ə r z a d ə. Elə bu cür ixtisar eləmisən ki, məhəbbətin elə gödək çıxıb.

M a r a l. Eybi yoxdur. Yerli komitə səni otaqsız qoymaz. Sən ki, bizə belə yaxşılıq eləyib məsələnin üstünü açdın, mən də sənin məsələni elə bu gecə həll edəcəyəm.

S ə n u b ə r. Necə həll edəcəksən?

M a r a l. O mənim işimdir.

S ə n u b ə r. Necə axı?

B ə r b ə r z a d ə. Söz güləşdirmə. Maral xanım ki deyir, demək, eləyəcək.

M a r a l. Sən yenə onunla danışırsan?

B ə r b ə r z a d ə. Mən karam, lalam, mən pəs.

S ə n u b ə r (*Maralа*). Onda mən mane olmayım. Salamat qalın.

M a r a l. Xudahafiz.

Sənubər çıxır.

B ə r b ə r z a d ə (*həyəcan içərisində*). Maral, qorxsam da, utansam da, dizlərim titrəsə də... özüm şəxsən sənə yetirirəm ki...

M a r a l. Hə, de, de, tez ol! Ay aman, tər məni basdı...

B ə r b ə r z a d ə (*öz-özünə*). Ölmək ölməkdir, xırıldamaq nə deməkdir? (*Maralа*) Mən səni sevirəm.

M a r a l (*həyəcanla*). Ay, ciyərim kabab kimi tüstülənir.

B ə r b ə r z a d ə. Eybi yoxdur. Kabab tüstüsü göz çıxarmaz.

U s t a S e g a h içəri girir. Bir-iki dəfə öskürür.

U s t a S e g a h.

Bağışlayın mən sizə mane oldum,
Eşq yetirdiyinizə qane oldum.

M a r a l (*özünü itirir*). Çox gözəl, yoldaş Bərbərzadə, yerli komitə bu məsələni həll edər. (*Qaçır*)

B ə r b ə r z a d ə. Usta Segah, qoysana kasıbçılığımızı eləyək. Ya özün üçün bir söhbət yoldaşı tap məşğul elə, ya da ki, boynundan bir zəng as. Çünki bu cür gəzməyinlə sən bu gecə çoxlarına mane ola bilərsən.

U s t a S e g a h. Bu sözü mənə deməyə səni məcbur eləyən məhəbbətdir. (*Bərbərzadə Maralın arxasınca gedir. Usta bunu hiss eləmir, böyük həvəslə sözünə davam edir*) Mən bir bülbül görmüşəm ki, gülün eşqi ilə özünü qəfəsə saldı və gülün eşqi ilə də həlak oldu. Necə ki, "Çahargah" üstə deyirlər. Bülbülü...

Dönüb heç kəsin olmadığını görür, pərt halda çıxır.
M ü r ş ü d əlində konvert içəri girir.

M ü r ş ü d. Sadığın başını güclə əkə bildim. Baxım görüm kim yazıb, nə yazıb? (*Məktubu açır, bərkdən oxuyur*) "Qaranlıq günümün işığı, könlümün yaraşığı Mürşüd! Gəl barışaq, daha mən dözə bilmirəm. Hicran dərdi barmaqlarıma güc verdi və bu məktubu yazmağa məcbur elədi. Səni axşam saat 9-a 5 dəqiqə qalmış böyük pilləkənlərin qabağında gözləyirəm. İmza İnci..." (*Həyəcanla*) Saat neçədir? Hələ beş

dəqiqə qalıb. Hə, indi sevərsən. Səni gör ayrılıq nə günə saldı ki, məni qaranlıq gününün işığı, könlünün yaraşığı adlandırırsan. Heç sən mənə belə sözlər deməzdin. Yox, min belə məktub olsa, sözümdən dönmərəm.

Mürşüd çıxır. U s t a S e g a h əlində zəng səhnəyə gəlir, çığırır.

U s t a S e g a h. Sadıq, ay yoldaş Sadıq! (*Zəngi çalır*)

S a d ı q (*içəri girir*). Ay usta, bu zəngi əlinə alıb nə düşmüsən mənim dalımca?

U s t a S e g a h. Mən bu zəngi çaldığım kimi, bu məktub da sənin ürəyinin tellərini çalacaqdır.

S a d ı q. Məktub mənədir?

U s t a S e g a h. Əlbəttə, sənədir.

Bağda səni axtarmaqdan, məndə qalmayıb tavan,
Bu elə məktubdur ki, qocanı eylər cavan.

Məktubu verir.

S a d ı q. Sağ ol, usta, sağ ol! (*Onu öpür*)

U s t a S e g a h. Eh... Gənclik, gənclik... Xoşbəxtlərsiniz, xoşbəxtlər... (*Çıxır*)

S a d ı q (*məktubu açıb baxır*). Arvaddandır! Məktubuna qurban olum, ay arvad! Oxuyum, görüm nə yazıb, "Qaranlıq günümün işığı, könlümün yaraşığı Sadıq!" Lap Gülərin sözləridir, xətti də özünün xəttidir. "Gəl barışaq." Gözüm üstə. "Daha mən dözə bilmirəm." Mən də həmçinin. "Hicran dərdi barmaqlarıma güc verdi." Sağ ol səni, hicran dərdi. "Bu məktubu yazmağa məni məcbur elədi." Əcəb elədi. "Səni axşam saat 9-a 5 dəqiqə qalmış böyük pilləkənlərin qabağında gözləyirəm. İmza Gülər..." (*Sevinclə*) Haradasan, Gülər, mən səni dəli kimi axtarıram!

Sadıq çıxır. G ü l ə r əlində məktub içəri girir.

G ü l ə r. Bəs İnci hanı? Görsə sevinəcək. Görəsən, nə yazıb: "Qaranlıq günümün işığı, könlümün yaraşığı Gülər!" Oxay, nə yalvarır. "Gəl barışaq." Yalvarırsan? Elə mən də bunu istəyirdim. "Daha mən dözə bilmirəm. Hicran dərdi barmaqlarıma güc verdi və bu məktubu yazmağa məni məcbur elədi." Əcəb olub. "Səni axşam saat 9-a 5 dəqiqə qalmış böyük pilləkənlərin qabağında gözləyirəm. İmza Sadıq."

Gözlə. Səni o qədər gözlətdirim ki... Bilet almışam, gedirəm. Elə gedəcəyim ki, heç xəbərin olmayacaq. Qoy bir İncini tapım!

Gülər çıxır. İ n c i bu biri tərəfdən gəlir.

İ n c i (*məktubu açıb oxuyur*). "Qaranlıq günümün işığı, könlümün yaraşığı, İnci!" Bu nədir, kim yazıb? "İmza Mürşüd." "Hicran dərdi barmaqlarıma güc verdi. (*Gözlərini silir*) Məni məcbur elədi... Səni axşam saat 9-a 5 dəqiqə qalmış böyük pilləkənlərin qabağında..." (*Yenə gözlərini silir, saata baxır*) Deməli, burada gözləyəcək. Qoy gözləsin. Of, ürəyim yaralı quş kimi çırpınır. Güləri tapım, görək, nə vaxt yola düşəcəyik. (*Çıxmaq istədikdə, Sadıqla qarşılaşır*)

S a d ı q. Salam. (*Gülür*)

İ n c i. Hə, nə dediniz? Mən yoldaşımı axtarıram.

S a d ı q. Elə mən də tələsirəm. Ona görə də...

İ n c i. Üzr istəyirəm.

S a d ı q. Hələlik... Görüşənə qədər... (*Çıxır*)

İ n c i. Üzr istəyirəm... (*O biri tərəfə getmək istədikdə, Mürşüd qabağına çıxır*)

M ü r ş ü d. Bəlkə siz burada bir nəfər gözləyirsiniz? Bəlkə mən sizə mane oldum?

İ n c i. Xeyr... Lazımdırsa, mən gedə bilərəm. Siz bu gecə yəqin ki, çox məşğulsunuz.

M ü r ş ü d. Qaldı ki... Dağ boyda günahı bir barmaq kağızla yumaq çətindir.

İ n c i. Onu sizə deyən gərək. Bu günahı axar çaylar da yuyub təmizləyə bilməz.

M ü r ş ü d. Mən buradan çıxıb gedə də bilərəm.

İ n c i. Öz işinizdir.

M ü r ş ü d. Əlvida! (*Çıxa-çıxa öz-özünə deyir*) Heç dəxli var? (*Məktubdan oxuyur*) "Gəl barışaq, daha mən dözə bilmirəm..." Heç dəxli var? Özü məktub yazıb, özü də fors eləyir. (*Çıxır*)

İ n c i (*məktubdan oxuyur, öz-özünə deyir*). "Gəl barışaq, daha mən dözə bilmirəm..." Çox lazımdır.

İnci çıxır. S a d ı q saatına baxa-baxa darıxmış halda gəlib böyük pilləkənlərin qabağında gəzişir. G ü l ə r əlində məktub içəri girir. Sadığı görüb məktubu gizlədir.

S a d ı q. Gülər!

G ü l ə r. Deməli, hicran dərdi?

S a d ı q. Bəli, hicran dərdi.

G ü l ə r. Bəs o məsələ necə olsun? Sözünün üstündə durursan, yoxsa peşman olmusan?

S a d ı q. Razıyam. Öz adıma evimizdə uşaq bağçası açacağam.

G ü l ə r. Elə isə yaxın gəl.

S a d ı q. Gəl deyirsən, gəlim də. Niyə gəlmirəm ki? Bunu çoxdan eləyəydin də, ay insafsız!

G ü l ə r. Guya, sən özün çox insaflısan?

S a d ı q. Oynayırsan, gəl, bir az fırlanaq.

G ü l ə r. Nə sözüm var ki, fırlanaq da. Hava sümüyümə düşməsəydi, sənlə oynamazdım.

Süzə-süzə çıxırlar. M i r z ə Q ə r ə n f i l, B ə r b ə r z a d ə, M a r a l gəlirlər.

M i r z ə Q ə r ə n f i l. Sizi mən cani-dildən təbrik eləyirəm. Mən sizin üçün əlləşməkdən yorulmuşam. Siz də gərək mənim üçün əlləşəsiniz.

B ə r b ə r z a d ə. Əlbəttə, Mirzə Qərənfil. Biz sənə ömrümüz uzunu borcluyuq.

M a r a l. Elə onun üçündür ki, sənin xatirinə, biz Sənubəri yerli komitə tərəfindən bir otaqla mükafatlandırmışıq.

M i r z ə Q ə r ə n f i l. Necə? Sənubərə otaq? Maral xanım, sən bunu rəsmi deyirsən, qeyri-rəsmi?

M a r a l. Lap rəsmi!

B ə r b ə r z a d ə. Rəsmidən də bir az o yana.

M i r z ə Q ə r ə n f i l. Deməli, mükafat?

M a r a l. Bəli, mükafat!

M i r z ə Q ə r ə n f i l. Demək otaq?

B ə r b ə r z a d ə. Bəli, otaq!

M i r z ə Q ə r ə n f i l. Onda, elə isə bağışlayın. Mən bir az tələsirəm. (*Tələsik çıxır*)

B ə r b ə r z a d ə. Tutdu.

M a r a l. Tutdu da sözdür! Gör indi nə olacaq!

Çıxırlar. M i r z ə Q ə r ə n f i l S ə n u b ə r i çəkərək içəri gətirir.

S ə n u b ə r. Məni hara aparırsan, Mirzə Qərənfil?

M i r z ə Q ə r ə n f i l. Mirzə Qərənfil sənə fəda olsun dəstəsilə. Ey mənim laçınım!

S ə n u b ə r. Nə oldu, fikrini dəyişdin?

M i r z ə Q ə r ə n f i l. Mən bayaq sənlə zarafat eləyirdim. Axı, küsəndən sonra barışmağın ayrı hüsnü var.

S ə n u b ə r. Demək sevirsən?

M i r z ə Q ə r ə n f i l. Göydə! O da sözdür? Bəs sən necə, sevirsən?

S ə n u b ə r. Mirəm.

M i r z ə Q ə r ə n f i l. Hə, bu olmadı. Ürəyimi sındırma, mənim bildirçinim, gəl görək.

N ə s i r o v, B ə r b ə r z a d ə və M a r a l içəri girirlər. Mirzə Qərənfilin sözü yarımçıq qalır.

N ə s i r o v. Daha siz ən çox qonaqlar ilə məşğul olun. Mirzə Qərənfil kimi xəlvətə çəkilməyin. (*Mirzə Qərənfilə*) Nə var, özündə deyilsən?

M i r z ə Q ə r ə n f i l. Evlənirəm, yoldaş Nəsirov.

N ə s i r o v. Yenə? Kimi alırsan? Gizlindir, yoxsa bilmək olar?

M i r z ə Q ə r ə n f i l. Bilmək olar, niyə olmur? Sənubər xanımı.

Sənubər hirslə bir tərəfə çəkilir.

N ə s i r o v. Aha, bizim Sənubəri? Bəs otaq məsələsi necə, düzəldi?

M i r z ə Q ə r ə n f i l. Düzəldi, yoldaş Nəsirov, yerli komitə mükafat olaraq, Sənubər xanıma otaq düzəldib, hələlik orda yaşayacağıq.

M a r a l. Bıy, yazıq dəli olub ha... Biz Sənubəri istirahət evində bir aylıq istirahət otağı ilə mükafatlandırmışıq.

M i r z ə Q ə r ə n f i l. Nə? İstirahət evində?

M a r a l. Bəli, bəs necə?

M i r z ə Q ə r ə n f i l. Mənim evim yıxıldı, yoldaş Nəsirov!

N ə s i r o v. Mirzə Qərənfil, deməli, sən otağı sevirdin, Sənubəri yox?

M i r z ə Q ə r ə n f i l. Yoldaş Nəsirov!

N ə s i r o v. Etiraz eləmə, Qərənfil, sən pozğun adamsan.

M i r z ə Q ə r ə n f i l. Necə? Mən Mirzə Qərənfil – pozğun? Yox, yoldaş Nəsirov, qətiyyən düz demirsiniz. Məhəbbətdə, sədaqət məsələsində mənim qabağıma çıxan olmaz. (*Sənubərə*) Bura gəl, mənim qaranquşum. (*Sənubərin qolundan tutmaq istəyir*)

S ə n u b ə r. Çəkil, əlin mənə dəyməsin.

M i r z ə Q ə r ə n f i l. Yaxşı, yaxşı, gəl, incimə, mənim kəkliyim!

S ə n u b ə r. Kəkliyi ürəyində saxla yoxsa, ayrı arvadları oxşatmaq üçün quş tapmazsan. Cüvəllağı!

M i r z ə Q ə r ə n f i l. Görürsünüz, yoldaş Nəsirov? Bu da sizin tərifləyiniz Sənubər!

S ə n u b ə r. Mirzə Qərənfil!

M i r z ə Q ə r ə n f i l. Mirzə Qərənfil sənə fəda olsun dəstəsilə. Buyur, mənim durnam.

S ə n u b ə r. "Səndən mənə yar olmaz" havasını bilirsən?

M i r z ə Q ə r ə n f i l. Bilirəm, niyə bilmirəm ki?

S ə n u b ə r. O havanı oxuya-oxuya get!

Hamı gülür, Mirzə Qərənfil pərt olur.

B ə r b ə r z a d ə. Hə, Mirzə Qərənfil, sevgi quyusunun kankanı sən özünsənmiş.

M i r z ə Q ə r ə n f i l. Yoldaş Nəsirov!

N ə s i r o v. Daha sənə Nəsirov neyləsin? Sən həyatda kələfin ucunu itirmisən. Elə bir vəziyyətdə qalmısan ki, hamı səni artıq pozğun bir adam hesab eləyir. Halbuki özünü düzəldə bilərsən! Çirkin işlərdən, çirkin həyatdan əl çək, savadını artır.

M i r z ə Q ə r ə n f i l. Yoldaş Nəsirov!

N ə s i r o v. Bir kəlmə də danışmaq lazım deyil. Sənubər, sən yaxşı qızsan, amma bir az meşşanxasiyyətsən. Oxumağa get, mən sənin üçün otaq düzəltmişəm. Ərizə vermişdin, cavabı gəlib, bu günlərdə otaq verəcəklər, ananla bir yerdə orada yaşayarsan, bildin?

S ə n u b ə r. Baş üstə, yoldaş Nəsirov!

N ə s i r o v. Daha buralarda toplaşıb durmayın, qonaqların yanına gedin.

Hamı çıxır, Mirzə Qərənfil tək qalır.

M i r z ə Q ə r ə n f i l (*tək*). Bəli, həyatda birinci dəfədir ki, məni utandırdılar. Sənubər əldən çıxdı, otaq əldən çıxdı, hörmət əldən çıxdı. Ortada qaldı quru bir adım. Qərənfil! O da ki, solub getdi.

Mirzə Qərənfil gedir. G ü l ə r və S a d ı q səhnəyə çıxırlar.

G ü l ə r. Demək, daha bir də keçmiş söhbətlər təkrar olunmayacaq?

S a d ı q. O söhbətlər qurtardı, Gülər, mən, doğrusu, elə birinci gecədən peşman olmuşdum, üzə vurmurdum.

G ü l ə r. Bəs nə üçün bu barədə bir kəlmə İnciyə demirdin?

S a d ı q. Necə demirdim? Eşidəndə ki, Mürşüdün arvadı sənin rəfiqəndir, ürəyimdə dedim ki, arxayın ol, Sadıq, işlər düzəldi. İnci bacıya nə vaxt rast gəlirdimsə səndən söhbət salırdım.

G ü l ə r. Bəs bu xəbərlər niyə mənə çatmırdı?

S a d ı q. Demoli, inanmırsan? Mən bu saat onu tapıb şahid göstərərəm.

G ü l ə r. Lazım deyil, inanıram, yəqin elədir.

S a d ı q. Yox, Gülər, mən bundan sonra şahidsiz-sübutsuz iş görməyəcəyəm, bir də səndən ayrılmalı halım yoxdur. Bircə dəqiqə səbir elə. Onu tapıb bura gətirim.

Sadıq çıxır. M ü r ş ü d içəri girir.

M ü r ş ü d. Aha, Gülər xanım, sizi axtarırdım, bu İnci inanmır ki, mən sizinlə danışanda peşman olduğumu demişəm.

G ü l ə r. İnci nahaq iş görür. Daha elə sözlərin yeri yoxdur, köhnəni unutmaq lazımdır, hanı o?

M ü r ş ü d. Budur burada, yenə qaşqabağını sallayıb.

G ü l ə r. Eybi yoxdur, mən bu saat onun qaşqabağını açaram.

Çıxırlar. İ n c i ilə S a d ı q içəri girirlər.

İ n c i. Gülərə şahid lazımdır? Zənn eləmirəm, Gülər sizi o qədər sevir ki, bütün sözlərinizə şahidsiz-sübutsuz inanar.

S a d ı q. Budur, özünüz danışın. Bəs necə oldu?

M ü r ş ü d ilə G ü l ə r içəri girirlər.

S a d ı q. Budur, özü gəldi.

İ n c i. Gülər!

G ü l ə r. İnci, barışdın? Təbrik eləyirəm. Daha qaşqabağını niyə sallamısan?

İ n c i. Mən? Əksinə, deyirlər sən şahid-sübut axtarırsan?

G ü l ə r. Heç bir şahid lazım deyil, mən öz Sadığıma inanıram.

İ n c i. Mən də Mürşüdə. Mürşüdsüz mənim bir dəqiqəm olmasın.

M ü r ş ü d (*Sadığa*). Eşitdin?

S a d ı q. Bəs sən necə? Sən də eşitdin? Təbrik eləyirəm!

M ü r ş ü d. Məhv olsun subaylıq!

S a d ı q. Olsun, razıyam.

Müşüd (*İnciyə*). Arvad, bu gecə beş yerə bilet almışam, teatra, kinoya...

İnci. Mənə daha bilet lazım deyil. Bəs biz harada oturacağıq? Yerimiz haradadır?

Sadıq. Birinci sıra, birinci yer.

Müşüd. Sizdən qabaqda heç kəs oturmayacaq.

Sadıq. Di gəlin gedək, Gülər xanım, buyurun!

Getmək istədikdə, Usta Segah içəri girir.

Usta Segah. Deməli, barışdınız? Sizi bir yerdə görmək bilirsiniz mənim bu qoca ürəyimi nə qədər cavanlaşdırır?

Sadıq. Usta, gəl bir bizim yoldaşlarımızla tanış ol.

Usta Segah. Böyük həvəs və şadlıqla. (*İnci və Gülərlə görüşür*) Bir az qoca olduğuma baxmayın, əlimdən bu cür cavan binalar çıxır.

Nəsirov və qeyriləri içəri girirlər.

Müşüd (*Sadığa*). Nəsirova de ki, barışmışıq.

Sadıq. (*Nəsirova*). Bir sözümüz var, yoldaş Nəsirov!

Nəsirov. Sözü mən deyəcəyəm. (*Hamının yığıldığını görüb mitinqi açır*) Yoldaşlar! Biz bu istirahət evini vaxtından iki ay qabaq qurtarmışıq. İşçilərimiz, staxanovçularımız, mühəndis və texniklərimiz alqışa layiqdirlər. Ancaq mühəndislərimizin bəzilərində iş məhəbbəti olduğu kimi ailə məhəbbəti nədənsə...

Sadıq. Yoldaş Nəsirov, biz hazırıq.

İkisi də barışdıqlarına işarə edirlər.

Nəsirov. Hə, çox gözəl. Məsələ aydındır. Deməli, bunlarda iş məhəbbəti da vardır, ailə məhəbbəti də, yoldaşlar! Binamız texnikanın son tələbinə uyğun olaraq tikilmişdir. Buna siz özünüz də şahid olacaqsınız. Buyurun, şərəfli əməkdən sonra burada istirahət edin! Biz isə yeni sahələrdə, yeni tikintilərdə məşğul olacağıq.

Lenti kəsir, qapılar açılır, hamı istirahət evinə daxil olur.

Pərdə

1940

AŞNALAR

4 pərdə, 5 şəkildə

İŞTİRAK EDƏNLƏR

Qurbanov Qurban – tədarük idarəsinin müdiri
Firuzə – onun arvadı
Rəhilə – laborant
Murad – kassir
Səməndərli – yanğın və mühafizə şöbəsinin rəisi
Hüseyn – anbardar
Əli kişi – mühafizəçi
Gülümov – hesabdar
Qumru – hesabat stolu müdiri
Ağazadə – rayon partiya komitəsinin təlimatçısı
Qənbər – kolxozdan bir nəfər

BİRİNCİ PƏRDƏ

BİRİNCİ ŞƏKİL

Rayon mərkəzlərinin birində taxıl tədarükü idarəsi. Səkili ev. Bir tərəfdə taxıl anbarı. Səkidə və həyətdə stullar qoyulmuşdur. Yaydır. Pərdə açılan kimi səhnədə həyəcan və gət-gəl görünür. Səməndərli, Hüseyn və Gülümov, Qurbanovun evinə çamadan daşıyırlar. Sonra Qurbanov özü yarıhərbi libasda içəri girir.

Qurbanov. Hə, aşnalar, salam! Çox şadam ki, hamınızı sağ-salamat görürəm.

Gülümov. Siz necəsiniz, yoldaş Qurbanov! Şükür olsun, gəldiniz. Sizsiz bu idarənin bir günü olmasın. Sağ-salamatsınız, inşallah?..

Qurbanov. Dəmir kimiyəm. Sağ-salamat olmamış nə olacaq ki? Qumru, necəsən? Yaxın gəl, əlin əlimə dəysin. Maşallah, günü gündən ətlənirsən. O gün ispalkomun katibi deyir ki, Qumrunu irəli çəkmək istəyirik. Deyirəm, yox, aşna, özümüz irəli çəkmişik, bəsdir. Onsuz deyirəm, yığdığımız taxılın bərəkəti olmaz ki? Hə, Gülümov, bəs sən özün necəsən?